**QARİFAT DADAŞOVA**

# TƏDRİS PROSESİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Dərs vəsaiti**

ADPU-nun Elmi Metodiki Şurasının
25.04.2025-ci il tarixli iclasın (3 nömrəli
protokol) qərarı ilə capa buraxılmışdır.

**BAKI – 2025**

**ELMİ REDAKTOR:**

Azərbaycan Dövlət Pedaqoji Universitetin "Pedaqoji psixologiya" kafedrasının müdiri, professor, pedaqogika elmlər doktoru Əliyeva Şəhla Qasım qızı.

**RƏYCİLƏR:**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetin "Məktəbəgədər təhsil" kafedrasının müdiri, professor, pedaqoqika elmlər doktoru İlyasov Müseyib İbrahim oğlu.

2. Azərbaycan Dövlət Pedaqoji Universitetin "Ümumi Psixologiya" kafedrasının professoru, psixologiya üzrə fəlsəfə doktoru Hüseynov Elmar Afis oglu.

3. Slavyan Pedaqoji Universitetin "Pedaqogika və Psixologiya" kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Mehraliyeva Zemfira Müzəffər qızı.

4. Slavyan Pedaqoji Universitetin "Pedaqogika və Psixologiya" kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru Həsənova  Gulnarə Anatollu qızı.

**QARİFAT DADAŞOVA**
**TƏDRİS PROSESİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ**
**Dərs vəsaiti. ADPU-nəş. ADPU-nəş. 152 s**

"Pedaqoji prosesində yeni pedaqoji texnologiyaların tədbiqi" adlı metodiki vəsait ADPU-nun "Pedaqoji Psixologiya" kafedrasının müəllimi Qərifət Dadaşova tərəfindən yazılmışdır. Kitabda təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti və pedaqoji prinsipləri, bu problemin nəzəri və prsaktiki əsasları şərh olunmudur. "Tədris prosesində yeni pedaqoji texnologiyaların tədbiqiistiqamətləri" adlı metodiki vəsait müəllimlər və "Məktəbəgədər təhsil" fakültəsində təhsil alan tələbələr üçün faydalı olacaqdır.

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 4
**I FƏSİL. PEDAQOJİ PROSESDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ ƏHƏMİYYƏTİ** ........ 6
1.1. Təlim – tərbiyə prosesində yeni pedaqoji teönologiyalardan istifadənin əhəmiyyəti və vəzifələri ....6
1.2. Müasir təlim texnologiyalardan istifadə ................. 18
1.3. Pedaqoji texnologiyaların inkişaf tarixi ................. 25
1.4. Pedaqoji texnologiyaların təsnifatı .......................... 34
1.5. İnterartiv təlim və onun üstünlükləri ....................... 53
1.6. İnteraktiv təlim metodlarının xüsusiyyətləri ........... 62
**II FƏSİL. YENİ PEDAQOJİ TEXNOLOGIYALARIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARDAN İSTİFADƏ İMKANLARI** ........................................... 71
2.1. Şagirdlərin idrak fallığının yüksəldilməsində yeni pedaqoji tex.......................................................... 71
2.2. Yeni pedaqoji texnologiyalar şəraitində – layihələr metodu ............................................................................ 78
2.3 Dalton plan texnologiyası – müasir təhsil kontekstində ....................................................................... 89
2.4. Fənlərin tədrisində kompüter texnologiyalarından istifadə imkanları ......................................................... 98
2.5. Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında interaktiv metodlardan istifadə ......................................120
**NƏTİCƏ** ............................................................................136
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**.....145

## Ön söz

Əsirlər boyu hər bir cəmiyyətdə gənc nəslin inkişafına xüsusi diqqət yetiriblər. Hər bir təlim-tərbiyə və gənc nəslin inkişaf prosesi pedaqoji prosesin düzgün təşkil olunmasından asılıdır. Alimlərin bu mövzuda apardıqları araşdırmalar göstərir ki, dərs prosesində istifadə olunan pedaqoji texnologiyalar pedaqogikada sistemli düşüncə tərzinin tətbiq edilməsinə xidmət edir. Bunu "təhsilin sistemləşdirilməsi" və ya "sinif təliminin strukturlaşdırılması" kimi ifadə etmək mümkündür. Müasir dövrdə texnoloji yanaşmanın iki əsas istiqaməti mövcuddur: ya müəllimin funksiyasını tamamilə öyrədici qurğularla əvəz etmək, ya da onun rolunu yalnız məsləhətçi və təşkilati funksiyalarla məhdudlaşdırmaq. Pedaqoji ictimaiyyət ikinci yanaşmanı daha real hesab edir. Bu yanaşmada təlim mərhələlərinə uyğun olaraq elmi əsaslı konkret məqsədlər müəyyən edilir, həmin məqsədlərə çatmaq üçün məzmun, metodlar və vasitələr işlənib hazırlanır. Pedaqoji texnologiya təlim prosesinin layihələndirilməsi, təşkili və həyata keçirilməsi üçün bütün detalları əhatə edən metodlar toplusudur. Burada həm müəllim, həm də şagirdlər üçün rahat və uyğun bir mühitin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Təqdim olunun metodiki vəsaitdə təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti və pedaqoji prinsipləri, pedaqoji texnologiyaların inkişaf tarixi, pedaqoji texnologiyalardan istifadə

zərurəti və təsnifatı geniş şərh edlmişdir. Metodiki vəsaitdə təhsil müəssələrində müxtəlif fənlərin tədrisində pedaqoji prosesin müxtəlif texnologiyaların tədbiqinin aktual problemləri açıqlanıb.

**Müəllifdən**

# I FƏSİL
# PEDAQOJİ PROSESDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ ƏHƏMİYYƏTİ

## 1.1. Təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti və vəzifələri

Qloballaşma anlayışı latın dilində "Yer kürəsi" mənasını verən, qlobus sözündən yaranmışdır. Bu anlayışın mahiyyəti mövcud ədəbiyyatlarda əsasən belə izah edilir: "Qloballaşma insanların, informasiyaların, əmtəə və kapitalın dünya miqyasında öz yerini maneəsiz dəyişmə prosesi olub, intensiv iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin, informasiya inqilabının nəticəsidir. Qloballaşmanın əsas amilləri transmilli qurumların yaranması və inkşafı olub, nəticə etibarı ilə "sərhədsiz dünya"nin yaranmasına xidmət edir". Qloballaşma müasir informasiya texnologiyalarının yaranması və inkişafı ilə üzvi surətdə bağlıdır. Qloballaşma sosial həyatın bütün sferalarına, eləcə də təhsil sahəsinə dərindən nüfuz etmişdir. Qloballaşma şəraitində təhsilin məzmun və keyfiyyətində dəyişikliklər edilməsi vacibdir. Xüsusilə gənclərin əməyə və gələcək həyata hazırlanması istiqamətində ciddi dəyişikliklərə ehtiyac vardır. Düşünürük ki, ənənəvi təhsil anlayışının transformasiyaya uğradığı bir dövrdə müəllim də öz rolunu dəyişməli, tədris

materialının şüurlu surətdə mənimsədilməsi üçün yeni pedaqoji texnologiyalardan səmərəli istifadə etməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü ili "İKT ili" elan etməsi bu sahənin əhəmiyyətini bir daha ön plana çıxarır. Buradakı əsas məqsəd, elmin, təhsilin və iqtisadiyyatın müxtəlif sahələrində müasir texnologiyaların tətbiqi ilə ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməkdir. Hazırkı dövrdə elmi-texniki tərəqqi təlim prosesində texnoloji vasitələrin istifadəsini həm zəruri edir, həm də geniş imkanlar açır. Tarix boyunca elmin və yüksək səviyyəli biliyin əhəmiyyəti hər zaman nəzərə alınmış, bu isə pedaqoji prosesin prinsipləri və qanunauyğunluqlarında öz əksini tapmışdır.

Müasir dövr təhsili intellektual inkişafı, kompüterləşdirilmiş sistemləri, məsafədən təhsili, elektron resursları və analitik-praktik yanaşmaları diqqət mərkəzinə çəkir. Bu amillər nəzərə alınmadan təlimin müasir tələbləri qarşılaması mümkün deyil. Pedaqoji texnologiya, təlimə yeni baxış bucağı gətirərək, ənənəvi metodlardan fərqli olaraq, idarə olunan bir proses kimi təqdim edilir. Bu texnologiyalar pedaqoji bacarığın və ustalığın təməlini təşkil edir. Hazırda təhsil sistemi elə yanaşma və vasitələr axtarır ki, nəticə yönümlü təlim prosesini sanki istehsalat texnologiyasına çevirsin.

Müasir texnologiyaların və yeni təlim metodlarının tətbiqi müəllimin pedaqoji fəaliyyətinin və iş üsulunun, eyni zamanda şagirdlərin öyrənmə tərzinin köklü şəkildə

dəyişdirilməsini tələb edir. Artıq şagirdlər hazır bilikləri qəbul etmək əvəzinə müstəqil axtarışlar aparmalı, öyrənmə prosesində yaradıcı və analitik düşüncələrini inkişaf etdirməlidirlər. Həmçinin yaddaş və təfəkkür qabiliyyətlərindən istifadə etməli, öyrənməyə maraq göstərməli, nəzarət və qiymətləndirmə prosesinə yanaşmalarını dəyişməlidirlər.

Keçmişdə müəllim və dərslik əsas informasiya mənbəyi hesab olunurdu. Lakin indi mətbuat, radio, televiziya, kompüter və internet vasitəsilə şagirdlər çox geniş informasiya axınına çıxış əldə edə bilirlər. Bu vasitələr ağıllı şəkildə istifadə edildikdə, pedaqoji arsenalda "müəllimin köməkçisinə" çevrilir.

Keçən əsrin əvvəlində texniki inqilab baş verdi, ortalarında isə təlimdə texniki vasitələrin istifadəsi genişləndi. O dövrdə təlim prosesini texnologiyalaşdırmaq cəhdləri çoxsaylı müzakirələrə səbəb oldu. Əsrin ikinci yarısına qədər müxtəlif texniki vasitələrin təlimdə tətbiqinə xüsusi diqqət yetirildi. Bəzi pedaqoqlar texnikiləşmənin kütləvi təlim prosesini tamamilə dəyişdirəcəyini və müəllimin rolunun azaldılacağını düşünürdülər. Lakin bu gün dünya pedaqogikasında texniki vasitələrin və onların öyrədici imkanlarının geniş istifadəsi davam edir.

Artan informasiya həcmi və texniki vasitələrin fərdi iş imkanları ənənəvi kütləvi informasiya vasitələrindən elektron sistemlərə, kompüterləşdirilmiş proseslərə, lazer əlaqə kanallarına və mikroelektron qurğulara keçidi zəruri

edir. Tədris prosesinin texnolojiləşdirilməsini dəstəkləyənlər təlimin effektivliyini məhz bu vasitələrdən istifadədə görürlər.

Texnologiya yunan mənşəli bir söz olub, “tecno” – sənət, incəsənət, “loqos” – anlayış, elm mənalarını ifadə edir və ümumilikdə peşə, elm, təlim kimi başa düşülür. Müasir dövrdə beynəlxalq nəşrlərdə texnologiyaya yeni məna və izahlar verildiyini görmək mümkündür.

Pedaqoji texnologiya təkcə təlim prosesində texniki vasitələrdən və kompüterdən istifadə sahəsi ilə məhdudlaşmır. O, təhsil prosesinin optimallaşdırılması məqsədilə effektivliyi artıran amilləri aşkar etmək, analiz etmək və uyğun metodlar işləyib hazırlamaq üçün tətbiq olunan sistemli yanaşmadır. Əsas mahiyyəti təlim prosesinin tam və səmərəli idarə olunmasını təmin etməkdir.

Pedaqoqların fikrincə, pedaqoji texnologiya təhsildə sistemli düşüncə metodunun tətbiq edilməsidir. Bu anlayış “təhsilin sistemləşdirilməsi” və ya “sinif təliminin strukturlaşdırılması” kimi də izah edilə bilər. Müasir texnoloji yanaşmanın iki əsas istiqaməti mövcuddur: ya müəllimin funksiyasını tamamilə öyrədici qurğularla əvəz etmək, ya da onun rolunu məsləhətçi və təşkilati vəzifələrlə məhdudlaşdırmaq. Pedaqoji ictimaiyyət ikinci yanaşmanı daha real və məqsədəuyğun hesab edir. Bu modeldə təlimin mərhələlərinə uyğun elmi əsaslandırılmış məqsədlər, həmin məqsədlərə çatmaq üçün məzmun, metodlar və vasitələr hazırlanır.

K.D.Uşinskinin dövründə pedaqogikanın incəsənət sahəsi olduğu vurğulanırdı. İncəsənət istedad və intuisiyaya əsaslanan yaradıcılıq sahəsidir və zamanla inkişaf edir. Texnologiya isə elmə və sistemli yanaşmaya söykənir. Deməli, uğurlu pedaqoq olmaq üçün elmi biliklərə və müasir texnologiyalara əsaslanmaq vacibdir. Elmi cəhətdən əsaslandırılmış təlim və tərbiyə texnologiyası pedaqoji bacarıq və səriştəliliyin göstəricisidir.

Elmi əsaslandırılmış təlim texnologiyası fəaliyyətin elmi təhlilə söykəndiyini vurğulayır. Bu baxımdan pedaqoji texnologiyalar zamanla inkişaf edir və yenilənə bilər. Müasir təhsil sistemində yeni pedaqoji texnologiyaların tətbiqi məktəblərdə geniş yayılaraq, peşəkar müəllimlərin fəaliyyətində yüksək səmərə göstərir. Lakin bu sahədə aparılan tədqiqatlara baxmayaraq, pedaqoji prosesə dair bəzi məqamlar hələ də tam izah olunmamış qalır.

Son illərdə “pedaqoji texnologiya” və “təlim texnologiyası” terminlərindən tez-tez istifadə edilsə də, onların mahiyyəti bəzən tam dərk olunmadan təkrarlanır. Eyni zamanda, pedaqoji ədəbiyyatda pedaqoji texnologiya, metod və priyom anlayışları bir-biri ilə qarışdırılır.

Azərbaycanda texnologiya sahəsində aparılan tədqiqatlar arasında Rusiya Təhsil Akademiyasının həqiqi üzvü A.O.Mehrabovun və professor Ə.Ə.Ağayevin mövqeləri xüsusi maraq doğurur. Prof. A.O.Mehrabov texnologiya anlayışını geniş miqyasda təhlil edərək, onun

mahiyyətini daha dəqiq izah etməyə çalışmışdır. O, ilk növbədə texnologiyanın ümumi mənasına diqqət çəkərək, onun ətraf mühitin öyrənilməsi, dəyişikliklərin həyata keçirilməsi, material istehsalı və mənəvi dəyərlərin formalaşdırılması ilə bağlı sistemli və praktik cəhətdən əsaslandırılmış fəaliyyət növü olduğunu vurğulamışdır.

Müəllif təhsil texnologiyaları mövzusuna toxunaraq, müxtəlif yanaşmaları təhlil edir. Bu yanaşmalardan biri tədris prosesində müxtəlif üsulların, vasitələrin, tədris avadanlıqlarının və texniki təlim vasitələrinin hazırlanması və tətbiqi ilə bağlıdır. Daha sonra o, pedaqoji texnologiyanı pedaqoji prosesin bütün komponentlərini əhatə edən kompleks yanaşma kimi izah edir. O, haqlı olaraq, pedaqoji texnologiyanın təlim texnologiyasına nisbətən daha geniş miqyasa malik olduğunu vurğulayır.

Yaponiya, ABŞ və Rusiya alimlərinin pedaqoji texnologiya ilə bağlı fikirlərini araşdıran müəlliflər qeyd edirlər ki, bu sahənin 50-yə qədər fərqli növü və tərifi mövcuddur. Alimlərin fikrincə, pedaqoji texnologiya tədris-tərbiyə vasitələrinin metod və üsullarının məcmusu olmaqla yanaşı, pedaqoji prosesin təşkilati-metodik aləti kimi çıxış edir. Pedaqoji texnologiya tədris prosesinin həyata keçirilmə məzmununu formalaşdırır və onun uğurlu nəticələrinin planlaşdırılmasını təmin edən sistem kimi təsəvvür edilir.

Pedaqoji texnologiya təlim prosesinin layihələndirilməsi, təşkili və həyata keçirilməsində müəllim və şagirdlərin birgə fəaliyyətini detallı şəkildə təşkil edən

metoddur. Burada müəllim və şagirdlər üçün rahat və məhsuldar mühitin yaradılması vacib şərtlərdən biridir.

Hazırda pedaqoji texnologiya anlayışı pedaqoji prosesdə müsbət nəticələrə gətirib çıxaran ideyalar toplusu kimi qəbul edilir. Dünyanın müxtəlif pedaqoji texnologiyalarını və onların praktik tətbiqini təhlil edən mütəxəssislər hesab edirlər ki, bu sahənin əsas elementləri onun mikrotexnologiya səviyyəsində formalaşır.

**Pedaqoji texnologiyanın mikrotexnologiya səviyyəsinə daxil olan əsas elementlər:**

- tədris məqsədləri;
- diaqnostik qiymətləndirmələr (ilkin, cari, yekun);
- təlim prosesində subyektlərin birgə fəaliyyəti (müəllim-şagird, şagird-şagird əməkdaşlığı);
- təlimin təşkili, metodu, forması və vasitələrinin seçilməsi;
- refleksiya və geribildirim;
- tədris olunan fənnin məzmunu.

**Pedaqoji texnologiyalar pedaqoji prosesdə əsas dörd istiqamətdə istifadəsi nəzərdə tututlur:**

1. Pedaqoji texnologiyalar pedaqogika eminin məqsədlərini, məzmun və formalarını, təlim və tərbiyə metodlarını, təhsilin bütün sahələrini öyrənib istifadə imkanlarını göstərməkdir.
2. Pedaqoji texnologiyalar pedaqoji prosesin layihələşdirilməsində və ekspertizasında istifadəsi.

3. **Prossesual-təsviri:** təlimin planlaşdırılmış nəticələrinə nail olmaq üçün alqoritm prosesində istifadə etmək.
4. **Prossesual-təsirli:** texnoloji proses kimi şəxsi fəaliyyətdə, pedaqoji prosesdə, texniki təlim vasitələrinin tətbiqində istifadə etmək.

Təlim texnologiyaları çoxsaylıdır və hər biri müəyyən təlim-tərbiyə məqsədlərinin reallaşdırılmasına xidmət edir. Müasir təlim metod və vasitələrinin tətbiqi, xüsusilə qeyri-ənənəvi yanaşmaların ön plana çıxması ilə daha da aktuallaşmışdır. Bunun üçün müəllimlərdən yüksək ixtisas səviyyəsi, peşəkarlıq, yaradıcı yanaşma, təşəbbüskarlıq, eləcə də demokratik və humanist keyfiyyətlər tələb olunur.

Pedaqoji texnologiyalar əsasən mütəxəssislər tərəfindən formalaşdırılsa da, onların geniş yayılması və elmi araşdırmaların obyektinə çevrilməsi mühüm əhəmiyyət kəsb edir. Əks halda, yeniliklər yalnız məhdud bir çevrədə tətbiq olunur və geniş ictimaiyyətin istifadəsinə verilmir. Pedaqoji texnologiyalar yalnız fərdi bacarıq və şəxsi maraq əsasında deyil, elmi əsaslarla və pedaqoji prinsiplərə söykənərək inkişaf etdirilməlidir.

**Pedaqoji texnologiyaların əsas prinsipləri:**

1. **Tamlıq və sistemlilik** – təlim, tərbiyə və inkişafın vəhdətini təmin edərək pedaqoji sistemin bütövlüyünü qoruyur.
2. **Fundamentallıq –** təlim prosesində fundamental biliklərin əsas bloklar əsasında təqdim edilməsinə yönəlib. Bu prinsip müxtəlif elmlərin inteqrasiyasına və sinergetik yanaşmaya əsaslanaraq tədrisə kompleks baxışı təmin edir.
3. **Mədəniyyətə uyğunluq** – təlim müasir mədəni inkişaf səviyyəsinə uyğun təşkil edilməli və sərbəst, yaradıcı düşüncəni inkişaf etdirməlidir.
4. **Humanist yanaşma** – təhsil prosesində insana və onun fərdi inkişafına xüsusi diqqət yetirilməlidir. Buraya humanitar fənlərin tədrisi və insan mərkəzli yanaşma daxildir.
5. **Fasiləsiz təhsil –** "öyrənməyi öyrətmək" prinsipi ilə təhsilalanların bilik əldəetmə vərdişlərini inkişaf etdirmək hədəflənir.
6. **Təhsilin informatlaşdırılması** – müasir informasiya texnologiyalarından istifadə etməklə təhsilalanların informasiya savadlılığını artırmaq məqsədini güdür.

Pedaqoji texnologiyalar yalnız təhsilin bir elementi deyil, eyni zamanda onun məqsədini, məzmununu, prosesini və nəticəsini müəyyən edən əsas vasitədir. Sistemli və ardıcıl tətbiq edildikdə, o, təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilir, şagirdlərdə analitik

düşüncə və yaradıcılıq qabiliyyətinin inkişafına kömək edir.

Müasir dövrdə pedaqoji və təlim texnologiyalarına dair bilik və bacarıqların artırılması mühüm əhəmiyyət kəsb edir. Bu sahədə müəllimlərin ixtisas səviyyəsinin yüksəldilməsi və pedaqoji ustalığın artırılması zəruridir. Bir sıra Asiya ölkələrində bu sahədə ciddi uğurlar əldə edilmişdir. Məsələn, Hindistanda təlim texnologiyalarının tətbiqi nəticəsində məzunların bilik və bacarıqları yüksək səviyyəyə çatmış, onların bir qismi inkişaf etmiş ölkələrdə fəaliyyət göstərməyə başlamışdır. Sinqapur isə planlı və məqsədyönlü yanaşma sayəsində təhsil və texnologiya sahəsində qabaqcıl ölkələrdən birinə çevrilmişdir.

Pedaqoji texnologiya dedikdə, pedaqoji ustalıq da nəzərdə tutulur. Bu, pedaqoji prosesin uğurla həyata keçirilməsi üçün həlledici amillərdən biridir. Müəllimin pedaqoji texnologiyalara yiyələnməsi onun fəaliyyətinin effektivliyini birbaşa müəyyənləşdirir. Bu kontekstdə pedaqoji ünsiyyətin də əhəmiyyəti böyükdür. Müəllim və şagird arasında qurulan effektiv ünsiyyət pedaqoji prosesin keyfiyyətini artırır.

Son illərdə Azərbaycanda pedaqoji və təlim texnologiyalarına maraq artmışdır. Bununla belə, bu sahədə ciddi ehtiyaclar da mövcuddur.

**Problemlərin həlli üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:**

1. Təhsil işçilərinin pedaqoji texnologiyalar barədə məlumatlandırılması və bu sahədə maarifləndirmə işlərinin aparılması.
2. Təhsil sistemində yeni pedaqoji texnologiyalar üzrə inkişaf strategiyasının müəyyənləşdirilməsi və təlim texnologiyaları mərkəzlərinin yaradılması.
3. Yeni texnologiyaların tətbiqi üçün fərdi və ictimai təşəbbüslərin dəstəklənməsi.
4. Səmərəli dərs təcrübələrinin yayılması və bu sahədə effektiv metodikaların təşviqi.
5. Müəllimlərin təlim texnologiyaları üzrə bacarıqlarının inkişaf etdirilməsi və onların peşəkar hazırlıq səviyyəsinin artırılması.
6. Müəllim hazırlığı və təcrübə proqramları arasında əlaqələrin gücləndirilməsi.

Təlim və pedaqoji texnologiyaların inkişaf etdirilməsində əsas məqsəd, müasir texnologiyalar və innovativ yanaşmalar əsasında ölkədə təhsil sisteminin inkişafına töhfə verən effektiv və interaktiv təlim modelinin formalaşdırılmasıdır.

Bunun üçün müəllimlərin pedaqoji texnologiyalar sahəsində bilik və bacarıqlarını artırmaq, yeni sistemlərin yaradılması və səmərəli dərs təcrübələrinin yayılması zəruridir. Beləliklə, pedaqoji texnologiyalar, müasir təhsilin keyfiyyətini artıraraq, şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək məqsədini güdür.

**Təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyaların istifadəsi ilə bağlı suallar:**

1. Yeni pedaqoji texnologiyalar hansı spesifik dəyişiklikləri müəllimlərin və şagirdlərin iş üsullarında yaradır?
2. Qloballaşmanın təhsil sahəsinə təsiri nədir və bu, yeni pedaqoji texnologiyaların tətbiqinə necə təsir göstərir?
3. Müasir informasiya texnologiyalarının tətbiqi təhsilin keyfiyyətini necə artırır?

## 1.2. Müasir təlim teönologiyalardan istifadə

Bütün dünya kimi Azərbaycan da üçüncü minilliyə qədəm qoymuşdur. Bu gün məktəbdə təhsil alan uşaqlar gələcəyin yetkin vətəndaşları olacaqlar. Hər kəs özünə belə bir sual verə bilər: XXI əsrdə bizi nə gözləyir? Gələcəyin təlimi hansı xüsusiyyətlərə malik olmalıdır? Bu dövrdə insanlara hansı bilik, bacarıq və keyfiyyətlər lazımdır? **Bu suallara cavab tapmaq üçün müasir dövrün xüsusiyyətlərini düzgün dərk etmək vacibdir.**

1. Müasir dünya sürətlə dəyişir. Elm, texnologiya, xüsusilə kompüter texnologiyalarının inkişafı inanılmaz dərəcədə sürətlənmişdir. İnsanların da bu dəyişikliklərə uyğunlaşa bilməsi üçün çevik düşüncə, yeni şəraitə tez adaptasiya olmaq və özünü inkişaf etdirmək bacarıqlarına sahib olması zəruridir.
2. İnformasiya axını gündən-günə artır. Müasir insan bir gündə aldığı məlumatı keçmişdə insanlar bir ildə əldə edirdilər. Yeni biliklər tez köhnəlir və problemlərin həlli üçün daim yeni biliklərə yiyələnmək tələb olunur. Buna görə də insanlar öyrənməyi öyrənməli, daim inkişaf etməyə çalışmalıdırlar. Dərketmə fəallığı, hər şeyi öyrənmək həvəsi və əməksevərlik bu prosesdə mühüm rol oynayır.
3. Zamanın məhdud olması insanları fəal və yaradıcı olmağa, çevik qərarlar qəbul etməyə

sövq edir. Yeni məsələlər qarşıya qoymaq və onların həlli üçün təşəbbüs göstərmək, fəaliyyətini düzgün planlaşdırmaq və daxili nizam-intizam vacib şərtlərdən biridir.

4. Cəmiyyətin sosial strukturunda baş verən dəyişikliklər şəxsiyyətin formalaşmasına xüsusi tələblər qoyur. İnsan hüquqlarına hörmət etmək, demokratik prinsipləri dərk etmək və sosial məsuliyyət hissini inkişaf etdirmək zəruridir. İnsanlar müstəqil düşünməyi, tənqidi yanaşmanı və öz fikirlərini əsaslandırmağı bacarmalıdırlar.
5. Cəmiyyətdə sosial təbəqələşmə, fərqlərin dərinləşməsi və virtual ünsiyyətin geniş yayılması qarşılıqlı anlaşma və əməkdaşlıq bacarıqlarını vacib edir. Qarşılıqlı hörmət, etibar, dostluq və tolerantlıq dəyərləri əsas meyarlardan biri olmalıdır.
6. Ekoloji problemlər, terrorizm və mədəniyyətə qarşı vandallıq artdıqca, insanlarda təbiətə və mədəni irsə qayğı hissini inkişaf etdirmək zərurəti yaranır. Öz xalqının mənəvi dəyərlərinə sahib çıxmaq, mədəniyyətini qorumaq və dünya sivilizasiyasının nailiyyətləri ilə tanış olmaq vacibdir.

Bu səbəbdən də müasir təhsil sisteminin əsas məqsədi uşaqları dəyişən dünyanın reallıqlarına hazırlamaq olmalıdır. Təhsil prosesi şəxsiyyətin inkişafına yönəlməli, onların yaradıcı və müstəqil düşünmə

qabiliyyətini artırmalıdır. **Bunun üçün aşağıdakı əsas bacarıqların formalaşdırılması vacibdir:**

- analitik və məntiqi düşünmə;
- ətraf mühitdə baş verən hadisələrə tənqidi yanaşma;
- müstəqil və əsaslandırılmış qərarlar qəbul etmə;
- ətrafdakıları yaradıcı şəkildə dəyişmək bacarığı;
- yeni bilikləri müstəqil şəkildə əldə etmək və tətbiq etmək;
- praktik problemləri həll etmək qabiliyyəti;
- şəxsiyyətin inkişafına dair yeni məqsədlər müəyyənləşdirmək və onlara nail olmaq.

Ənənəvi tədris metodlarında müəllim əsas bilik mənbəyi rolunda çıxış edir və şagirdlər passiv dinləyici olur. Bu yanaşma öyrənmənin effektivliyini aşağı salır, çünki şagirdlərin təfəkkürünü inkişaf etdirmək əvəzinə onları yadda saxlamağa təşviq edir. Halbuki, bilik yalnız real həyatda tətbiq edildikdə dəyər qazanır. Müasir dövrün tələblərinə cavab verən tədris sistemində əsas məqsəd şagirdlərə bilikləri müstəqil şəkildə əldə etməyi və praktikada istifadə etməyi öyrətmək olmalıdır.

Təlim metodlarının çevik və innovativ olması XXI əsrin çağırışlarına uyğun təhsil sisteminin qurulmasını təmin edər. Şagirdlərə sərbəst düşünmə, təşəbbüskarlıq və tənqidi yanaşma bacarıqları aşılanmalıdır. Bu yanaşma, onların idraki və sosial fəallığını artırmaqla yanaşı, şəxsiyyət olaraq formalaşmasına da kömək edəcəkdir.

Ənənəvi təlimdə başlıca diqqət şagirddə biliklərin mənimsənilməsinə yönəldilirsə, müasir təlim metodlarında əsas diqqət şagirdin müstəqil inkişafına, şəxsiyyət kimi formalaşmasına istiqamətlənir. Bu prosesdə müəllimin başlıca vəzifəsi şagirdlərin yardımçısı olmaq, təlim prosesində onların fəaliyyətini əlaqələndirməkdən, şagird-lərdə yaradıcı axtarışa həvəs yaratmaqdan ibarətdir. Bu gün bizim cəmiyyətimizdə sürətlə düşünüb nəticə çıxar-maq şəriştəsi olan, təhlili, ani olaraq ümumiləşdirməyə qadir olan fəal təfəkkür sahibləri lazımdır. Belə adamlar həm savadlı olmalı, həm də intellektual vərdişlərə yiyələnərək bilik və bacarıqlarını tətbiq etməyi bacar-malıdırlar. Qarşılıqlı münasibətdə olduqları adamlarla ünsiyyət yarada bilmək, onlarla dialoqa girmək, problemin müzakirəsində həlledici fikir söyləmək, tərəf-müqabilini inandırmaq bacarığı əsas şərtlərdəndir.

Müəllim hər bir şagirddə düşüncəni gücləndirməli, hadisələrə yanaşmaq bacarığı tərbiyə etməlidir. Şagird-lərdə müstəqil bilik əldə etmək vərdişlərinin yaradılması dərsin əsas məqsədi olmalıdır. Müəllim yeri gəldikcə ümumiləşdirmə aparmalı, şagirdə istiqamət verməli, mənalı axtraış aparmağa şərait yaradılmalıdır. Şagirdin hüquqları gözlənilməli, bilik səviyyəsindən asılı olma-yaraq hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alın-malıdır. Uşaq qrupları birləşib, mühakimə yürütməyi, müzakirə edərək birgə qərar qəbul etməyi öyrənməlidir. Müzakirə etmək, biliyi tətbiq etmək, mühakimələr əsasında nəticə çıxarmaq şagirdin dünyagörüşünün

genişlənməsinə, biliyin dərinləşməsinə çox böyük təsir göstərir. Müxtəlif fikirlərin yaranması hesabına ağıllı nəticələr çıxarılır və əsil bilik əldə edilir.

Yeni pedaqoji yanaşmanın qarşıya qoyduğu əsas məqsəd şagirdin idrak qabiliyyətini, təfəkkürünü və intellektual səviyyəsini inkişaf etdirməkdir. Bu gün əsas vəzifə şagirdə sadəcə bilik ötürmək deyil, ona öyrənməyi öyrətmək, düşünmə qabiliyyətini inkişaf etdirmək və müstəqil qərarlar verməyi aşılamaqdır. Şagirdlərin yaxşını pisdən ayırmaq, həqiqəti tapmaq bacarıqlarının formalaşdırılması müasir pedaqoji təfəkkürün əsas prinsiplərini təşkil edir.

Hazırda müstəqil Azərbaycan Respublikasının qarşısında duran ən vacib məsələlərdən biri müasir dövrün tələblərinə uyğun bir təhsil sisteminin qurulmasıdır. Təhsil sosial praktikanın mürəkkəb forması kimi çıxış edərək, cəmiyyətin yenilənməsi və inkişafında mühüm rol oynayır. İdeoloji baxışlar, ictimai münasibətlər və təfəkkür formaları yeni həyat şərtlərinə uyğunlaşmağı, sosial həyatın əsas prinsiplərini öyrənməyi və yeni siyasi reallıqları praktikada möhkəmləndirməyi tələb edir. Bu istiqamətdə təhsilin geniş imkanları vardır.

Ənənəvi təhsil sistemi uzun müddət cəmiyyətə dominant təsir göstərmiş və təhsilalanlara obyekt kimi yanaşılmış, avtoritar idarəetmə üsulları tətbiq olunmuşdur. Hər bir cəmiyyətin təhsil sistemi onun dəyərlərinə və tələblərinə uyğun formalaşır. Buna görə də, demokratik

prinsiplərə əsaslanan Azərbaycanda da müasir dövrün tələblərinə cavab verən təhsil sistemi qurulmalıdır.

Ənənəvi təlim metodları artıq müasir dövrün tələblərinə uyğun gəlmir və tədricən yeni keyfiyyət dəyişiklikləri ilə sosial şəxsiyyətyönümlü təhsil sisteminə transformasiya edilməlidir. İnkişaf etmiş ölkələrdə bu yanaşma artıq illərdir tətbiq edilir və formalaşdırılmışdır. Azərbaycan da bu təcrübəni öyrənərək, öz milli-mənəvi dəyərlərini və sosial şəraitini nəzərə alaraq, ümumi təhsil səviyyəsindən başlayaraq tətbiq etməlidir.

Bu məqsədlə Azərbaycan hökuməti təhsil sahəsində maliyyə və texnoloji dəstək əldə etmək üçün ABŞ, Böyük Britaniya, Çin, Rusiya, Hollandiya, Yaponiya kimi inkişaf etmiş ölkələrlə və Dünya Bankı, UNICEF, SOROS Fondu kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşdur. 1999-cu ildən etibarən təhsil sahəsində islahat proqramı həyata keçirilir və bu proqram təlim-tərbiyə prosesinin keyfiyyətini və səmərəliliyini artırmaq məqsədini daşıyır. Bu çərçivədə əsas istiqamətlər müəllim hazırlığının təkmilləşdirilməsi, tədris məzmununun yenilənməsi, idarəetmənin modernləşdirilməsi və qiymətləndirmə sisteminin yeni modelinin işlənib hazırlanmasıdır.

Tədris prosesinin effektivliyini artırmaq üçün müəllimlərin bilik və bacarıqlarının daim yenilənməsi və təkmilləşdirilməsi vacibdir. Müasir pedaqoji texnologiyalar təhsil islahatının ayrılmaz hissəsi kimi müəllim hazırlığında mühüm rol oynayır və onların müasir tələblərə cavab verməsini təmin edir.

Müasir təhsil sisteminin qurulması, cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu sistem, gənclərin müstəqil düşünmə, yaradıcı olmaq, problemləri həll etmə və sosial münasibətlərdə fəal iştirak etmə qabiliyyətlərini inkişaf etdirməlidir. Müasir pedaqoji texnologiyalar, müəllimlərin biliklərinin artırılması, tədris prosesinin keyfiyyətinin yüksəldilməsi və şagirdlərin şəxsiyyət kimi formalaşması üçün əvəzsiz bir vasitədir.

Azərbaycan hökuməti, inkişaf etmiş ölkələrlə əməkdaşlıq edərək, təhsil sahəsində islahat proqramlarını həyata keçirir. Bu proqramlar, müasir təhsil sisteminin tələblərinə uyğun olaraq, gənclərin gələcəkdə cəmiyyətin tam hüquqlu üzvü olmalarını təmin etmək məqsədini güdür.

**Müasir təlim texnologiyalarının tətbiqi və XXI əsrin tələblərinə uyğun təhsilin əhəmiyyəti ilə bağlı suallar:**

1. XXI əsrdə müasir təhsilin əsas məqsədi nədir və bu məqsədin həyata keçirilməsi üçün hansı metodlardan istifadə edilməlidir?
2. Sürətlə dəyişən dünyada şagirdlərin müstəqil bilik əldə etməsi niyə vacibdir?
3. Müasir dövrdə məlumat axınının artması təhsil sisteminə necə təsir edir?
4. Şagirdlərin yaradıcı düşüncə qabiliyyətinin inkişafı üçün hansı müasir təlim metodları tətbiq oluna bilər?

## 1.3. Pedaqoji texnologiyaların inkişaf tarixi

Biz XXI əsrin ilk onilliklərini yaşayırıq. Bu gün dünyaya göz açan və ilk addımlarını atan körpələr, gələcəkdə bəşəriyyətin inkişafına töhfə verəcək və qlobal problemlərin həllində iştirak edəcəklər.

"Millətimizin sabahı" dediyimiz uşaqlar bizim gələcəyimiz, ömrümüzün davamıdır. Onların sağlam böyüməsi, düzgün təlim-tərbiyə alması və yüksək biliklərə yiyələnməsi cəmiyyətin inkişafı üçün vacib şərtlərdəndir. XXI əsrdə formalaşacaq nəsillərin bilikli, bacarıqlı və müstəqil düşünən vətəndaşlar kimi yetişməsi, bugünkü təhsil sisteminin səviyyəsindən asılıdır.

Məktəb cəmiyyətin sosial sifarişini yerinə yetirən mühüm qurumlardan biridir. O, şagirdlərə dərin və hərtərəfli biliklər verməli, onların bacarıq və vərdişlərini inkişaf etdirməli, müasir dünyagörüşlü və yüksək mədəniyyətə malik fərdlər yetişdirməlidir. Bunu həyata keçirmək üçün ümumtəhsil məktəblərində beynəlxalq standartlara uyğun yeni pedaqoji və metodik yanaşmalar tətbiq edilməlidir.

Məktəb, eyni zamanda, vətəndaşların geniş ünsiyyət qurduğu əsas ictimai institutlardan biridir. Müəllimlər, istər peşəkar hazırlığa malik olsunlar, istərsə də təcrübə qazandıqları müddətdə, şagirdləri cəmiyyətdə məhsuldar əməkdaşlıq etməyə və dinc yanaşı yaşamağa hazırlamalıdırlar. Müəllimin bilmədiyi və ya əhəmiyyət vermədiyi bir məsələ, şagird üçün böyük bir boşluq yarada bilər.

Buna görə də müəllimlər daim öz üzərlərində çalışmalı, tədris metodlarında yeniliklər tətbiq etməli və müasir yanaşmalara üstünlük verməlidirlər.

Açıq cəmiyyətin tələblərinə cavab vermək üçün şagirdlər tənqidi düşünməyi, məntiqli arqumentlər irəli sürməyi, öz fikirlərini aydın və inamla ifadə etməyi bacarmalıdırlar. Bununla yanaşı, onların sosial bacarıqları da inkişaf etdirilməli, milli və mənəvi dəyərlərə əsaslanan dünyagörüşləri formalaşdırılmalıdır.

Ölkəmizdə həyata keçirilən təhsil islahatlarının əsas məqsədi, müasir tələblərə cavab verən yeni təhsil sisteminin yaradılmasıdır. Bu baxımdan, milli təhsil sisteminin formalaşdırılması və onun beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi vacib məsələlərdən biridir. Bu istiqamətdə ən uğurlu addımlardan biri də yeni pedaqoji texnologiyaların tətbiq olunmasıdır.

Keçmiş dövrlərdə, həm sovet hakimiyyəti illərində, həm də müstəqilliyin ilk illərində təhsil müəssisələrində müəyyən pedaqoji texnologiyalardan istifadə olunmuşdur. Lakin bu texnologiyalar əsasən ənənəvi metodlara söykənir və müəyyən stereotiplərə əsaslanırdı. Zaman keçdikcə təhsil sahəsindəki qlobal inkişaf tendensiyaları, elmi-texniki tərəqqinin nailiyyətləri və beynəlxalq təcrübələr Azərbaycanda da yeni pedaqoji texnologiyaların tətbiqini zərurətə çevirmişdir.

Pedaqoji texnologiya, təlim-tərbiyə prosesində sistemli və məqsədyönlü yanaşmaların tətbiqini nəzərdə tutur. O, müasir metodlardan, texniki vasitələrdən və

innovativ pedaqoji yanaşmalardan istifadə etməklə, şagirdlərin daha yüksək səviyyədə bilik və bacarıq qazanmasını təmin edir. Pedaqoji texnologiyalar, yalnız bilik ötürməklə kifayətlənməyib, eyni zamanda, təlimin keyfiyyətini artıran və şagirdlərin yaradıcı potensialını üzə çıxaran yanaşmalardır.

Texnologiya termini yunan mənşəli olub, "texno" – sənət, ustalıq, bacarıq, "loqos" isə elm və nəzəriyyə anlamını daşıyır. İstehsal sahəsində bu termin, xammal və materialların işlənməsi, məhsul istehsalının ən səmərəli üsullarla həyata keçirilməsi kimi başa düşülür. Təhsil sahəsində isə texnologiya, bilik və bacarıqların öyrədilməsi üçün sistemləşdirilmiş və elmi əsaslandırılmış metodların tətbiqini ehtiva edir.

Tədqiqatlar göstərir ki, pedaqoji texnologiyalar tədris prosesinin səmərəliliyini artırmaq üçün ən yeni metodlara əsaslanmalıdır. Təhsil sahəsində tətbiq olunan texnologiyalar, öyrədilən biliklərin daha effektiv mənimsənilməsinə, interaktiv və yenilikçi yanaşmaların genişləndirilməsinə xidmət edir.

Nəticə etibarilə, XXI əsrdə pedaqoji texnologiyalar təhsilin əsas tərkib hissəsinə çevrilməkdədir. Onların düzgün tətbiqi, şagirdlərin yalnız bilik əldə etməsinə deyil, həm də müstəqil düşünmə, problemləri həll etmə və yaradıcı yanaşma bacarıqlarının formalaşmasına kömək edir. Müasir təhsil sistemi, yeni texnologiyaların tətbiqinə açıq olmalı və daim yenilənməlidir.

1950-ci illərdə pedaqoji texnologiya dedikdə, əsasən, təlimin texniki vasitələrinin tətbiqi nəzərdə tutulurdu. Lakin sonrakı dövrlərdə pedaqoji texnologiya anlayışı genişlənərək təlim-tərbiyə prosesinin bütün aspektlərini – mövcud paradiqmaları, tədris metodlarını, idarəetmə və qiymətləndirmə mexanizmlərini əhatə etməyə başladı. Zaman keçdikcə bu anlayış təkmilləşdi və daha geniş miqyasda tətbiq olundu.

1960-cı illərdə tanınmış pedaqoq-alim C.P.Kapitsa təhsili gələcəyə istiqamətlənmiş sənaye sahəsi kimi qiymətləndirirdi. Onun bu fikri illər keçdikcə daha da aktuallaşdı. Həmin dövrdə ABŞ və Avropa ölkələrində təhsil sahəsində islahatlar aparıldı, təlimdə texniki vasitələrin istifadəsinə geniş yer verildi. Bunun nəticəsində yeni pedaqoji texnologiyalar formalaşdı və bu yanaşma tərbiyə prosesinə də sirayət etdi. Bu dövrdə pedaqoji texnologiyalar təlim-tərbiyə prosesinin sistemli şəkildə planlaşdırılması kimi dəyərləndirilirdi.

1970-ci illərdə təhsil sahəsində sistemli yanaşmaya keçid pedaqoji texnologiyaların formalaşmasına güclü təsir göstərdi. Bu dövrdə tədris prosesinin məqsədyönlü idarə olunması və didaktik problemlərin elmi əsaslarla həll edilməsi ön plana çıxdı. Beləliklə, texnologiyanın təkcə maşınlarla bağlı olmadığı, həm də fəaliyyət sisteminə çevrildiyi aydın oldu. XX əsrin ikinci yarısından etibarən texnologiya elmi və texniki sahələrdən pedaqoji prosesə inteqrasiya edildi. Avropada bu prosesə "tədris texnologiyası" adı verilmişdi, lakin sonrakı illərdə bu an-

layış “pedaqoji texnologiya” termini ilə daha geniş istifadə olunmağa başladı.

1980-ci illərdə pedaqoji texnologiyalar təhsildə təlim-tərbiyə prosesinin əsas inkişaf istiqamətinə çevrildi. Onların elmi və tərbiyəvi əhəmiyyəti daha da artdı. 1990-cı illərdə isə pedaqoji texnologiya anlayışı daha da genişləndi və təhsil sistemində müxtəlif yanaşmalar meydana çıxdı.

2000-ci illərdə pedaqoji texnologiyalar fənn müəllimləri və tədris mütəxəssisləri tərəfindən tədris prosesinin səmərəliliyini artırmaq üçün tətbiq olunmağa başladı. Bu dövrdə həm nəzəri, həm də praktik islahatlara əsaslanan müxtəlif fəaliyyət sistemləri formalaşdı. Pedaqoji texnologiyaların təlim və tərbiyə prosesində spesifik növləri, tipləri və formaları meydana çıxdı.

**Bu yanaşmalar içərisində “metatexnologiya”, “makrotexnologiya”, “mezotexnologiya” və “mikrotexnologiya” kimi kateqoriyalar mühüm yer tutur:**

- **metatexnologiya** – sosial-pedaqoji səviyyədə təhsil sahəsində ümumi yanaşmaları formalaşdıran texnologiyalardır. məsələn, inkişafyönlü təlim texnologiyaları, regionlarda təlim keyfiyyətinin idarə olunması və məktəbdə tərbiyə işinin təşkili bu kateqoriyaya aid edilə bilər.
- **makrotexnologiya** – təlim-tərbiyə prosesinin konkret istiqamətləri üzrə ümumi metodik

yanaşmaları əhatə edir. buna misal olaraq bərpaedici təlim texnologiyalarını göstərmək olar.

- **mezotexnologiya** – təlim-tərbiyə prosesinin spesifik hissələrinə yönələn texnologiyaları əhatə edir. buraya dərsin gedişi, materialların mənimsənilməsi və təkrar olunması ilə bağlı texnologiyalar daxildir.
- **mikrotexnologiya** – tədris prosesində operativ məsələlərin həllinə yönəlmiş texnologiyalardır. yazı vərdişlərinin formalaşdırılması və psixoloji treninqlərin təşkili bu texnologiyaların nümunələridir.

Müasir dövrdə pedaqoji texnologiyalar təhsil sahəsində əsas innovativ yanaşmalardan birinə çevrilmişdir. Müasir pedaqoji texnologiyaların tətbiqi təlim, tərbiyə və təhsil prosesinin daha səmərəli və effektiv olmasına xidmət edir. Bu texnologiyalar təkcə ABŞ və Avropa ölkələrində deyil, həm də digər dövlətlərdə geniş yayılmağa başlamışdır. Xüsusilə Hindistanın təhsil sistemində məqsədyönlü pedaqoji və təlim texnologiyalarının tətbiqi nəticəsində məzunların bu sahədəki bilik və bacarıqları yüksək səviyyəyə çatmışdır. Onların bir çoxu ABŞ və Almaniya kimi inkişaf etmiş ölkələrdə peşəkar fəaliyyət göstərmək imkanı əldə etmişlər.

Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan Sinqapurda da elm və texnologiyanın inkişafına yönəlmiş

planlı və strateji yanaşmalar mühüm rol oynamışdır. Azərbaycanın ərazisindən dəfələrlə kiçik olmasına baxmayaraq, bu ölkə təhsilə verdiyi əhəmiyyət sayəsində qlobal arenada əhəmiyyətli uğurlar qazanmışdır.

Son illərdə Azərbaycanda da pedaqoji texnologiyaların tətbiqi dinamik inkişaf prosesinə daxil olmuşdur. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın şəxsi təşəbbüsləri sayəsində ölkədə 1000-dən çox yeni məktəb inşa edilmişdir. Bununla yanaşı, şəhər və kənd məktəblərində müasir pedaqoji texnologiyaların tətbiqi üçün müvafiq şərait yaradılmışdır. Bu proses çərçivəsində təhsilin keyfiyyətini artırmağa imkan verən texniki və audio-vizual vasitələr quraşdırılmışdır. Xüsusilə kompüterlərin təhsil prosesinə inteqrasiyası bu sahədəki ən mühüm addımlardan biri kimi qiymətləndirilir. Bununla belə, kompüterlərin səmərəli və məqsədyönlü istifadəsi də əsas prioritetlərdən biri kimi qəbul edilməlidir.

Ölkə başçısı, Prezident İlham Əliyev də gənc nəslin inkişafının əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, "biz maddi dəyərlərimizi və iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı və biliyi onun gələcək uğurlarını müəyyənləşdirir və ölkənin hərtərəfli inkişafına xidmət edir". Bu baxımdan, ölkənin intellektual potensialının gücləndirilməsi istiqamətində görülən işlər strateji əhəmiyyət daşıyır.

Azərbaycanın təhsil sahəsində həyata keçirdiyi bu islahatlar və pedaqoji texnologiyalara inteqrasiyası gələcəkdə daha bilikli və innovativ düşüncəyə malik bir nəslin yetişməsinə xidmət edəcəkdir.

Ənənəvi dinamikanın yaddaşa, yeni pedaqoji texnologiyanın isə idraka əsaslandığı pedaqoqlar tərəfindən qəbul edilərək, ikincinin isə insanın intellektuallığında önəmli rol oynadığını yetərincə sübuta yetirilmişdir.

Yeni pedaqoji texnologiyaların ümumtəhsil məktəblərində tətbiqi zamanın tələbidir. Məktəb praktikasında müasir təhsil texnologiyaları çoxdur. Bura inkişaf etdirici dialoqlu-diakusiyalı interaktiv oyunlarla müşahidə olunan, qabaqlayıcı, kollektiv differensial və s. təlim texnologiyaları daxildir.

Ənənəvi dərsin qurluşu, ev tapşırığının yoxlanılması, keçmiş mövzunun sorğusu, keçmiş mövzu ilə yeni mövzunun əlaqələndirilməsi, yeni mövzunun şərhi və möhkəmləndirilməsi və ev tapşırığının verilməsi və qiyətləndirlmə mərhələləri ilə səciyyələnir. Mərhələlərə diqqət etsək, tədris müddətində şagirdin tətqiqatçılığına yönələn müvafiq addımın atılmasının şahidi oluruq. Hər şey yaddaşa əsaslanır, öyrənmək prinsipinə üstünlük verilir. Ancaq yeni pedaqoji texnologiya üzərində qurulan dərsin mərhələlərində problemin axtarılıb tapılması, fərziyyənin dəqiqləşdirilməsi, nəticənin çıxarılması şagiridin tədqiqata yönəldərək onun intellektuallığını inkişaf etdirir.

Yeni pedaoji təlim texnologiyası üzrə tədris edilən mövzuda şagirdlər müstəqil olaraq idrak fəaliyyəti nümayiş etdirərək fərziyyələrinin təsdiqləməyə nail olmaq üçün tətqiqatçılıq nümayiş etdirmiş olurlar. Son dərəcə fəallıq şəraitində keçən interaktiv təşkil olunmuş dərslər günümüzün reallığıdır. Biz bu sahədə gündən-günə bilik və bacarığımızı artırmalıyıq.

Yeni pedaqoji texnologiyaların tətbiqi, XXI əsrdə təhsil sisteminin inkişafında mühüm rol oynayır. Müasir təhsil metodları, şagirdlərin intellektual inkişafını təmin edir və gələcəkdə dəyərli vətəndaşlar yetişdirmək üçün zəruridir. Bu proses, cəmiyyətin inkişafında və gələcəyin formalaşmasında əvəzsiz bir vasitədir. Müəllimlərin rolu, bu texnologiyaların effektiv istifadəsində və şagirdlərin inkişafında böyük əhəmiyyət kəsb edir.

**Pedaqoji texnologiyaların inkişaf tarixi ilə bağlı suallar:**

1. XXI əsrdə təhsilin inkişafında hansı yeni pedaqoji texnologiyaların tətbiqi önə çıxır?
2. Müəllimlərin rolunun pedaqoji texnologiyaların tətbiqindəki əhəmiyyəti nədir?
3. Azərbaycanda pedaqoji texnologiyaların tətbiqində hansı müasir yanaşmalar mövcuddur?
4. Heydər Əliyev Fondunun pedaqoji texnologiyaların tətbiqinə dair təşəbbüsləri nələrdir?

## 1.4. Pedaqoji texnologiyaların təsnifatı

Elm və texnologiyanın sürətli inkişafı, informasiya bolluğu və texnoloji yeniliklər təhsil və tərbiyə prosesinə yeni tələblər və vəzifələr qoyur. Mövcud informasiyaları qavramaq və onlardan düzgün istifadə etmək üçün təhsil sisteminin rolu mühüm əhəmiyyət daşıyır. Hər bir şagirdin pedaqoji düşüncəsini inkişaf etdirmək və interaktiv təlim metodlarından səmərəli istifadə etmək bu prosesin əsas şərtlərindəndir. Müasir pedaqoji yanaşma, öyrənməyi öyrətmək prinsipinə əsaslanaraq, şagirdlərin intellektual potensialını tam şəkildə nəzərə almağı tələb edir.

Bu gün dünya təhsil sistemində innovativ pedaqoji texnologiyaların və interaktiv metodların tətbiqi geniş vüsət almışdır. Bu yanaşmalar dərs prosesini daha maraqlı və effektiv edir, şagirdlərin tədrisə fəal cəlb olunmasını təmin edərək onların iştirak səviyyəsini yüksəldir. Ən uğurlu tədris prosesi elə qurulmalıdır ki, şagirdlərin məktəbə maraqla gəlməsinə və elmi biliklərin onlar üçün zövq mənbəyinə çevrilməsinə şərait yaratsın.

Akademik M.Mehdizadə "Ümumtəhsil məktəb-lərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı əsərində qeyd edir ki, şagirdlərin bilik əldə etməsi həm müşahidə, həm də müəllimin izahları əsasında formalaşır. O bildirir ki, rasional düşüncəyə əsaslanan biliklərin kökündə həmişə canlı müşahidə dayanır.

Pedaqoji texnologiyaların tətbiqi tədris prosesinin məqsədlərindən asılıdır. Təlim nəticələrinin əldə olunması

birbaşa tədris prosesinin məqsədinə bağlı olduğundan, müəllim texnoloji yanaşmaları düzgün planlaşdırmalı və onları qarşıya qoyulan məqsədlərə uyğun tətbiq etməlidir.

Texnologiya – informasiya, enerji və materiyanın planlı və sistemli şəkildə idarə olunması ilə bağlı bir elm sahəsidir. Təlim texnologiyası isə tədris prosesinin metod və vasitələrini müəyyənləşdirən təşkilati-metodik alət kimi çıxış edir.

Pedaqoji texnologiya praktikada həm də müəyyən bilik və bacarıqların sistemli şəkildə formalaşdırılmasını və bu prosesin qiymətləndirilməsini əhatə edir. Mövcud pedaqoji ədəbiyyatlarda texnologiyaların müxtəlif təsnifatları mövcuddur.

**Ən çox qəbul edilən təsnifatlara aşağıdakılar daxildir:**

1. **Təlim texnologiyası –** bilik və bacarıqların əldə edilməsi üçün həyata keçirilən sistemli əməliyyatlar toplusu;
2. **Tərbiyə texnologiyası –** şagirdlərdə sabit və davamlı müsbət keyfiyyətlərin formalaşdırılması üçün istifadə edilən üsullar;
3. **İnkişaf texnologiyası –** təlim və tərbiyə prosesinin psixi və fiziki inkişafı dəstəkləyən yanaşmalarla əlaqələndirilməsi;
4. **Diaqnostika texnologiyası –** şagirdlərin bilik səviyyəsinin və məktəbə hazırlıq vəziyyətinin pedaqoji və psixoloji qiymətləndirilməsi.

Bundan əlavə, yeni təlim texnologiyalarına aşağıdakı yanaşmalar da daxildir: fərdiləşdirilmiş tədris metodları, problemli təlim, modul sistemli öyrənmə və digər müasir pedaqoji texnologiyalar. Bu texnologiyaların məqsədi tədris prosesini daha sistemli, səmərəli və məqsədyönlü etməkdir.

**1. Kooperativ təlim texnologiyası** – şagirdlərin birgə fəaliyyətini təşviq edir, onlarin əməkdaşliq qabiliyyətlərini inkisaf etdirir.

**Kooperativ öyrənmə (collaborative learning) –** bu, tələbələrin qruplar şəklində birgə işləməsini nəzərdə tutan təlim texnologiyasıdır. Bu, ümumi təhsil məqsədlərinə nail olmaq üçün həyata keçirilir. Əsas ideya ondan ibarətdir ki, tələbələr bir-birindən öyrənir, qarşılıqlı əlaqədə olurlar və bilik, ideya və təcrübə mübadiləsi aparırlar. Bu yanaşma ünsiyyət, tənqidi düşüncə, əməkdaşlıq və məsuliyyət bacarıqlarının inkişafına kömək edir.

**Kooperativ öyrənmənin üstünlükləri:**

- komanda işinin bacarıqlarının inkişafı. tələbələrin motivasiyasının və iştirakının artırılması.
- başqalarına izah etməklə materialın daha yaxşı başa düşülməsi.
- tənqidi düşüncə və yaradıcılığın inkişafı.
- fikir və yanaşmaların müötəlifliyinin dəstəklənməsi.

**2. Mübahisə və onun növləri. Buraya:**

**a) diskussiya –** iştirakçıların fikirlərini ifadə edə biləcəyi açıq müzakirə. Diskussiyalar strukturlu (müəyyən qaydalarla) və ya qeyri-formal ola bilər.

**b) polemika** – fikir ayrılıqlarının müzakirəsi.

Bu, şagirdlərin müəyyən bir mövzu üzrə öz fikirlərini və arqumentlərini müdafiə etdiyi aktiv müzakirə formasını ifadə edir, eyni zamanda opponetlərlə qarşılıqlı əlaqə qurur. Bu metod tənqidi düşüncənin, arqumentasiya bacarıqlarının və müzakirə aparma qabiliyyətinin inkişafına kömək edir.

**Polemikanın nüvləri:**

- **yazılı polemika:** iştirakçıların fikirlərini və arqumentlərini ifadə etdiyi məqalələr, esse və ya rəylər.
- **şifahi polemika:** dəbatlar və ya sinifdə müzakirələr, burada şagirdlər bir-biri ilə birbaşa qarşılıqlı əlaqə qura bilərlər.
- **rəsmi debatlar:** strukturlaşdırılmış tədbirlər, burada komandalar "lehinə" və "əleyhinə" arqumentlərini təqdim edirlər.

**Poemikanin təhsildəki üstünlükləri:**

- **tənqidi düşüncənin inkişafı:** şagirdlər müxtəlif baxışları analiz etməyi və qiymətləndirməyi öyrənirlər.
- **arqumentləşdirmə bacarığı:** polemika, fikirlərini aydın və məntiqi şəkildə ifadə etmə bacarıqlarını inkişaf etdirməyə kömək edir.

- **iştirakın artırılması:** polemikada aktiv iştirak, tədris prosesinə daha çox maraq göstərməyə səbəb olur.
- **komanda işinin formalaşması:** şagirdlər, mövqelərini müzakirə edərək və müdafiə edərək qruplarda işləməyi öyrənirlər.

**v) debat** – istirakcilarin müxtəlif mövzular üzrə formal mübahisələr.

İştirakçıların komandalar halında bölündüyü və müəyyən bir mövqeyə "lehinə" və "əleyhinə" arqumentlərlə çıxış etdiyi formal müzakirə.

**Müzakirə metodunun üstünlükləri:**

- tənqidi düşüncənin inkişafı.
- öz fikrini arqumentləşdirmək bacarığı.
- tələbələrin iştirak səviyyəsinin artırılması.
- komanda işində işləmə bacarıqlarının formalaşması.

**3. Fikir sıçrayışı** – yaradıcı düşüncənin inkişafını təmin edən metod.

Bu, pedaqogikada yaradıcı düşüncəni stimullaşdırmaq və problemləri həll etmək üçün istifadə olunan aktiv öyrənmə metodudur. Bu metod, şagirdlərin bir ideyadan digərinə gözlənilməz keçidlər etməsini nəzərdə tutur ki, bu da onlara qeyri-standart həllər tapmağa və tənqidi düşüncəni inkişaf etdirməyə kömək edir.

**Metodun əsas xüsusiyyətləri:**

- **yaradıcıq:** şagirdlər yeni ideyalar yaratmağa təşviq edilir ki, bu da ilk baxışda aydın olmaya bilər.
- **assosiasiyalı düşüncə:** metod, bir-biri ilə əlaqəsiz görünən konsepsiyalar arasında assosiasiyalar yaratmağı əhatə edir.
- şagirdlərin müstəqil fəaliyyəti (individual, cüt, qrup şəklində);
- layihənirı məzmun hissəsinin quruluşu (mərhələli nəticələrin göstərilməsilə);

- **tədqıqat üsullarının istifadəsi:** problemin müəyyənləşdirilməsi, ondan irəli gəbn tədqiqat məsələlərinin, tədqiqat üsullarının müzakirəsi,son nəticələrin rəsmiləşdirilməsi, alınan məlumatların təhlili, nəticələrin yekunlaşdırılması, düzəlişlərin edilməsi, nəticələr (birgə aparalan tədqiqatda “beyin hücumu”, “dəyirmi masa” üsullarından, statistik üsullardan yaradıcı hesabatlardan, gözdən keçirmədən istifadə).

Layihə tematikasının seçilməsi fərqli şəraitdə müxtəlİf ola bilər. Bəzi hallarda tematika təsdiq edilmiş proqram çərçivəsində təhsil orqanlanının mütəxəssisləri ilə ifadə edə bilər. Digər halda isə müəllimlər tərəfindən öz fənni üzrə təlim şəraiti, təbii ixtisas maraqları, şagirdlərin maraq və bacarıqları nəzərə alınaraq irəli sürüb bilər və bir də layihə tematikası şagirdlər tərəfındən onların tək idraki yox həm də yaradıcı maraqlarına uyğun təklif oluna bilər.

Layihələr tematikası ayrı-ayrı şagirdlərin biliklərini dərinləşdirmək, təlim prosesini fərqləndirmək məqsədilə bgbg məktəb proqramının nəzəri məsələsinə aid ola bilər. Daha çox lahiyə mövzuları əsasən təhsil orqanları tərəfindən tövsiyə edilən praktiki həyatda aktual olan və bununla yanaşı şagirdlərin tək bir fəndən yox müxtəlif sahələrdən biliklərini, şagirdlərin yaradıcılıq idrakını, tədqiqat vərdişlərini cəlb etməyə tələb edən

hansısa praktiki məsələyə aid olurlar. Belə, biliyin tamamilə təbii inteqrasiyası əldə edilir.

Məsələn, şəhərlərin çox ciddi problemi-ətraf mühitin məişət tullantıları ilə çirklənməsi. Problem: bütün tullantıların yenidən emal edilməsinə necə naİl olmaq olar? Burada həm ekologiya, həm kimya, həm biologiya, həm sosiologiya, həm də fizika var. Və yaxud digər bir problem: 1812 və 1941-45 illərin vətən müharibələri. Burda nəinki tarix, hətta siyasət və etika var. Və ya: çoxmillətli dövlətlərin-ABŞ, Rusiya, İsveçrə dövlət quruluşu problemi. Burada dövlət və hüquq, beynəlxalq hüquq, coğrafiya, etnoqrafiya, etnologiya sahələrindən biliklər tələb olunur. Və yaxud, dünya nağıllarından Zoluşka, Belosnejka, Ququşu şahzadəsi. Bu çalışma aşağı siniflər üçündür. Və görün burada uşaqlardan nə qədər axtarış, fərasət, yaradıcılıq tələb olunacaq! Lahiyələr üçün tükəniləcək qədər çoxdur və onlardan daha "ınəqsədəuyğunlarını" saymaq mümkün iş deyil, çünki bu reqlamentasiya oluna bilməyəcək canlı yaradıcılıqdır.

Hazırda sürətlə dəyişən həyatımız müasir təhsil prosesi qarşısında – pedaqoji prosesin şəxsiləşmiş oriyentasiyası, təbiətin hər bır individuata verdıyi bacarıq və qabiliyyətlərin üzə çıxarılması və inkişafi, şəxsiyyətə oriyentasiya edilmiş pedaqoji sistemin qurulması kimi müxtəlif qaçılmaz tələblər dayanmışdır. Təhsil texnologiyası şagirdin subyekt təcrübəsinin inkişafına: tədris üsulunun şəxsən onun üçün əhəmiyyətli üsullarının formalaşdırılmasına; özünütəhsil vərdişlərinə yiyələn-

məyə xidmət etməlidir. Con Dyuinin praktiki yönümlü pedaqoji texnologiyaları bu tələblərə cavab verir. Bu texnologiyalar hazırda tədris edilən informasiya texnologiyaları və məktəbin müasir informasiya rəhbəri ilə birlikdə ən mühüm vəzifənin - şagirdlərin özünü inkişaf rejiminə keçidlərinin daha tez və asan yerinə yetirilməsinə imkan verən təlimə yaradıcı yanaşmanı təmin edirlər.

Dyui məktəb təcrübəsində layihələr metodunu universal metod kimi nəzərdən keçirirdi. Lakin daha rasional təklif kimi irəli sürülür ki, bu metod ənənəvi təlim metodları ilə birlikdə nəzərdən keçirilsin, yəni, mövcud sistemi əvəz edən metod kimi deyil, inkişaf etmiş informasiya mühitində şagırdin müstəqil işinin təşkilində tamamlayıcı element rolunda çıxış etsin.

Təhsil prosesinin təşkilində təlim alanın rolu daha da artmaqdadır, belə ki, təşkil edilmiş özünü təlim prosesində təlim alan detal işlənilmiş və bacarıqla təşkil edilmiş tədris mühitində təhsilin istiqamətini məhz özü müəyyən edir.

Kuıs layihəsinin təşkili üzrə mini-briqadanın tərkibində işləyərkən təlim alan (şagird) həmfikirlərin yaradıcı kollektivində sosial qarşılıqlı fəaliyyət təcrübəsi əldə edir, əməkdaşlığın və əməyin elmi təşkilinin prinsipləri haqqında öz fikrini formalaşdırmaqla yanaşı, əldə edilmiş biliklərdən öz fəaliyyətində istifadə edir. Beləliklə, təlim alan bilikləri mənimsəməklə özününküləşdirməklə, konkret fəaliyyətdə şəxsi mənanın bütün tərəflərini, özünənəzarəti və özünütəhlİli inkişaf etdir-

məklə, özünün şüurun subyekti kimi meydana çıxmasını bildirir. Bu şagirdin özünü inkişafına xidmət etməklə, onun təlim prosesindəki statusunu yüksəldir.

Təlimin təşkilinin belə forması onun səmərəliliyinin yüksəldilməsinə imkan verir. O, qüvvədə olan əks əlaqələr sisteminin yaranmasını da təmin edir ki, onun da mahiyyəti, bunun da mahiyyəti ondan ibarətdir ki, əks əlaqələr sistemi təkcə şagirdlərin deyil, kurs layihəsi prosesində iştirak edən pedaqoqların da özünü realizə etməsinə və şəxsiyyətinin inkişafına xidmət edir. Onlara öz təcrübələrinin yenidən dərk edilməsi, professional ustalıqlarının təkmilləşdirilməsi, beynəlxalq əlaqələrin möhkəmlənməsinə yönəldilmiş pedaqoji əməkdaşlıqların dərinləşməsi. vahid tələblər sisteminin hazırlanması üçün yeni imkanlar yaranır. Bu da son Eləcə də təlim prosesinin informasiyalaşma əsasında optimallaşdırılmasına xidmət edir.

Bütün bunlar onu deyir ki, konkret metod dedikdə pedaqoqun və şagirdin qarşılıqlı fəaliyyət sistemi başa düşülür. Bu bizə üsulun geniş tərifi kimi təqdim edilir çünki bir çox şey layihə təliminin texnologiyalarına çıxır.

Demək olar ki, müasir şəraitdə layihə təlim əsaslarının yaradılması barədə danışmaq olar. N.Q.Çernilova layihə təlimini nəzəri biliklərin dərk edilməsi üçün məlumat pauzalarıyla kompleks təlim layihələrinin ardıcıl yerinə yetirilməsinin əsasında inkişaf edən, əsaslandırılan kimi görür.

Qeyd etmək lazımdır ki, bütün təhsil prosesini layihə təliminə keçirtmək məqsədəuyğun deyil. Təhsil sisteminin müasir mərhələdə inkişafı üçün təcrübəni müxtəlif şəxsi-istiqamətləndirici texnologiyalarnan zənginləşdirmək vacibdir, onlardan biri layihəli təlimin texnologiyaları ola bilər. Layihə texnologiyalarına tətbiq edilən seçilmiş tərkib hissələrini açaq.

**Təlim və tərbiyənin məqsədi, şagirdlərə elə şərait yaradılmalıdır ki:**

- sərbəst və həvəslə əksik olan bilikləri fərqli mənbələrdən əldə etsinlər;
- əldə etdikləri bilikləri idraki və prakitiki məsələlərin həlli üçün istifadə etməyi öyrənsinlər;
- fərqli qruplarda işləyərək kommunikativ bilikləri əldə etsinlər;
- özlərində araşdırma bacarıqlarını inkişaf etdirsinlər;
- sistemli dərk etməni inkişaf etdirsinlər.
- təlimə məsuliyyətli münasibət formalaşdırılsın;
- biliklərə dərindən maraq tərbiyə edilsin;
- zehni əməyi yeni pedaqoji texnologiyalar əsasında qursun.

**Layihəli təlimin əsas nəzəri mövqeləri:**

- şagird diqqət mərkəzində olmalıdır, onun yaradıcı bacarığının inkişaf etdirilməsinə yardım edilməlidir;

- təlim prosesi təlim fənninin məntiqinə yox şagird üçün şəxsi məna daşıyan və təlimdə onu həvəsləndirən fəaliyyət məntiqinə uyğun qurulur;
- layihə üzərİndə işin fərdi sürəti hər şagİrdin öz inkişaf səviyyəsinə çıxışını təmin edir;
- təlim layihələrin işlənilməsinə kompleks yanaşma şagirdin əsas fizioloji və psixi funksiyalarının balanslı inkişafına kömək edir;
- bilik bazasının fərqli şəraitdə universal istifadə hesabına onun dərin və düşünülmüş dərk edilməsi təmin edilir.

Beləliklə, layihəli təlimin mahiyyəti ondan ibarətdir ki, şagird təlim layihəsi üzərində işləyərkən real proses və obyektləri dərk edir. Bu şagird tərəfindən konkret hadisələrin yaşamasını, onu təzahürün, prosesin dərinliklərinə girməsinə cəlb etməsini və yeni obyektlərin yaradılmasını nəzərdə tutur.

Kəşf etmə və yaratmanı dərk etmək, yaşamaq, qoşulmaq üçün xüsusi təlimin formaları lazımdır. Onların arasında əsas rol imitasiya (təqlid) oyunlarına ayrılır.

Təqlid oyunu – öyrənmək və öz “mənliyini”, yaradıcılığını, aklivliyini, sərbəstliyini, özünü reallışdırmanı göstərmək məqsədilə insanın real (və ya təsəvvür edilən) gerçəkliyə daxil olmasınm ən azad və təbii formasıdır.

Məhz oyunda hər kəs könüllü olaraq özünə rol seçir, həm də nəzərə almaq lazımdır ki, şagird üçün şəxsi məna daşıyan onun idraki hərəkəti fəaliyyət strukturunda yerinə yetirilir.

**Oyunun aşağıda göstərilən funksiyaları var:**

- psixoloji gərginliyi aradan qaldırır və emosional boşaldılmaya kömək edir;
- psixoterapevtik, uşağa özünə və digər insanlara qarşı münasibəti ümumiləşdirmə üsullarını, psixi əhvalı dəyişdirməyə yardım edir;
- texnoloji dərk etmənin rasional sahədən fantaziya sahəsinə qismən keçməsinə imkan yaradaraq real həqiqətə oxşadır.

Müəllim və şagirdlərin fəaliyyət sistemləri.

Müəllim və şagirdlərin fəaliyyət sistemlərinin seçilməsi məqsədilə layihənin işlənilməsi mərhələlərinin müəyyənləşdirilməsi vacibdir. İndiki zaman üçün layihə işlənimməsinin növbəti mərhələləri yaranmışdır:

Layihə çalışmasının işlənilməsi, layihənin özünün işlənilməsi, nəticələrin ümumiləşdirilməsi, ictimai təq-dimat, refleksiya və s. praktik yəlim və tərbiyə prosesində çox böyük səmərə verir. layihələr metodu keçmiş əsrlərdən bizə gəlsə də bu gün də aktauldır və pedaqoji prosesdə uğurla istifadə olunaraq rəğbət qazanmışdır.

Müəllimlər, şagirdlərin bu metodu effektiv şəkildə istifadə etməsi üçün müvafiq dəstək və rəhbərlik etməlidirlər. Eyni zamanda, layihə üsulunun müvəf-

fəqiyyəti, şagirdlərin motivasiyasına, müəllimlərin hazırlığına və məktəbin resurslarına bağlıdır.

Layihə üsulu yalnız biliklərin əldə edilməsini deyil, həm də şagirdlərin şəxsi inkişafını, yaradıcı düşüncəsini və sosial bacarıqlarını artırmağa xidmət edir. Bu yanaşma, müasir cəmiyyətin tələblərinə cavab verən, yaradıcı və analitik düşünən vətəndaşların yetişdirilməsinə kömək edir.

**Layihə üsulunun müasir təhsildəki əhəmiyyəti ilə bağlı sual:**

1.“Layihə üsulunun tətbiqi şagirdlərin sosial bacarıqlarını necə inkişaf etdirir, və bu inkişafın təhsilin digər sahələrinə təsiri nədir”?

## 2.3. Dalton plan texnologiyası-müasir təhsil kontekstində

Dalton texnoiogiya layihələr metoduna daha yaxındır. Belə hesab edirik ki, bu texnologiya haqqında danışmaq çox məqsədəuyğundur, belə ki, məhz bu sistem uşaqların şəxsiyyət kimi inkişafı ideyalarının realizə olunması üçün böyük imkanlara malikdir.

Bir qədər tarixə arayış gətirək. Birincisi, Dalton ilk dəfə belə bir məktəbin yaradıldığı ABŞ şəhəridir və buradan da belə bir ad yaranmışdır. Hazırda belə məktəblər ABŞ, Hollandiya və bir sıra başqa ölkələrdə yayılmışdır.

Amerikan pedaqoq Helen Parkerherst məktəblərdəki vəziyyəti təhlil edərək, belə bir qənaətə gəlmişdir ki, məktəblərdə zorla təlim həyata keçirilir, uşaqların öz fıkirlərini sərbəst ifadə etmək, suallar vermək, oynamaq arzuları boğulur. Ona görə də o, öz qarşısına tədris prosesində uşaqlann həyat fəaliyyətinin təşkilinə yeni yanaşmaların tapılması kimi bir məsələ qoydu. H.Parkerherst uşaqlara sosiumda yaşamağa, ağıllarını, bədənlərini və ruhlarını inkişaf etdirməyi öyrədən “Laboratoriya planı” işləyib hazırladı.

“Laboratoriya planı” texnologiyasının əsasını təlimin fərdiləşmiş məqsədlərinin əldə edilməsi üzrə müəllimlərin və şagirdlərin fəaliyyətlərinin birləşdirilməsi ideyası təşkil edir. Burada diqqəti cəlb edən əsas məqam təlimin fərdiləşməsidir, belə ki, ilk növbədə məhz onun

vasitəsilə şagirdlərin şəxsiyyət kimi inkişafı texnologiyası təmin edilir.

**Dalton texnologiyanın məqsədləri:**

- şagirdin fərdi inkişafının təmin edilməsi;
- təlim-idrak fəaliyyətində şagirdin əməkdaşlıq, məsuliyyət və müstəqillik vərdişlərinə yiyələnməsi hesabına sosial təcrübəsinin inkişafının təmin edilməsi.

"Dalton texnologiyanın ilkin nəzəri baxışlan aşağıdakı kimidir. Dalton –plan kabinet təliminin üç prinsipə: azadlıq, müstəqillik, əməkdaşlıq əsaslanan təhsil prosesi ilə uyğunlaşdırılmasıdır. Bütün bu prinsiplər aparıcı prinsip – humanizm prinsipi ilə birləşdirilir. Dalton texnologiyası fəlsəfəsinin mahiyyəti də bundan ibarətdir".

**Hər bir prinsipin mahiyyətini nəzərdən keçirək.**

**Azadlıq prinsipi. Azadlıq –** şagird tərəfindən işin predmetinin, mövzunun, bilik mənbələrinin, tempin, forma və üsulların seçilməsi hüququdur. Təbiidir ki, dərsin predmeti əsasən tədris planı ilə müəyyən olunur. Lakin bu azadlıq məsuliyyət ilə üyğunlaşdmlir: şagird təlimi sərbəst keçir, özünü və qarşılıqlı nəzarəti həyata keçirir, lakin hər bır sərbəst yerinə yetirilmiş iş üçün məqsədin əldə edİlməsi səviyyəsini müəllim qiymətləndirir. Hər bir şagird müəllİm qarşısında fərdi olaraq hesabat verir. Beləliklə, azadlıq məsuliyyət ilə uyğunlaşdınlır.

**Müstəqillik prinsipi. Müstəqillik –** idrak fəaliyyətinin və öz inkişafının istiqamətinin müstəqillik səviy-

yəsinin şagird tərəfindən seçilməsi, qərarların qəbul edilməsində müstəqillik və seçimə görə məsuliyyətdir.

**Əməkdaşlıq prinsipi. Əməkdaşlıq – tədris –** idrak fəaliyyətinin formasının səçilməsidir: fərdi, iki nəfər və ya kiçik qrupda. Şagird kömək üçün kimə istəyirsə müraciət edə bilər: şagirdlərə, valideynlərinə, müəllimlərə. O, nəyi isə bilmədıyini etiraf etməkdən çəkinməməlidir. Bu şagirdlərə digər insanlara hörmət etməyi öyrənməyə, ona qulaq asmağı, başa düşməyi bacarmağı, onunla ünsiyyət tapmağı birgə qərarlar qəbul etməyi öyrənməyi, bir-birinə inanmağı, kömək etməyi qrupun işinə görə cavab vermək kimi hisslər aşılayır. Qeyd etmək lazımdır ki, kömək dedikdə hər hansı bir sualın cavabının harada axtanlmasına olan yardım başa düşülür.

Beləliklə, bu texnologiyanın əsas ideyası aşağıdakılardan ibarətdir: kiminlə istəyirsən işlə, kimdən istəyirsən soruş, lakin tapşırığın yerinə yetirilməsinə cavabdeh özün olacaqsan (məsuliyyət).

Baxdığımız texnologiyanın fəlsəfəsinin əsas müddəaları Dalton – plan vasitəsilə realizə olunur. Bu plana aşağıdakı elementlər: tapşıqlar, laboratoria və ev daxildir.

Tapşırıqlar Dalton texnologiyasınm maraqlı hissəsini təşkil etməklə yaradıcı xarakter daşıyırlar. Hər bir tapşırıqda məsələ (problem) müəyyən edilir. Tapşırıqlar səviyyə əsasında formalaşır. Tapşırıqlar təcrübələrin qoyuluşu, layihələrin işlənilməsi ilə əlaqədar tədqiqat xarakterli, dərs proqramları ilə məhdudlaşa və ya onun

çərçivəsindən kənara çıxmaqla ola bilər. Tapşırığın yerinə yetirilməsi müəllim tərəfindən fərdi olaraq hər bir şagirddən yoxlamaqla yanaşı, hamı üçün yoxlama işləri də verilir. Belə demək olar ki, məhz bu yoxlama işlərinin nəticələri də qiymətləndirir. Hər bir tapşırıq üçün qiymət verilmir və yalnız onun yerinə yetirilib - yetirilməməsi qeyd olunur və müəllim tərəfindən şifahi qiymətləndirmə alınır.

Helen Parkerherst tərəfindən Dalton – plan işlənildikdə o, təklif edirdi ki, bütün dərs materialı predmet üzrə dörd hissəyə (dərs rüblərinin sayına görə), sonra hər hissəni – rübdəki ayların sayına və sonra isə aylar həftələrin sayına bölünsün. Bu hər bir gün, həftə, ay üçün tapşırıqların müəyyən edilməsində əsas mahiyyətə malikdir. Lakin belə bir yanaşma formal hesab edilmişdir. Sonrakı təcrübələr göstərmişdir ki, bölünmənin əsasını dərs proqramının məntiqi bitmiş hissələri təşkil etməlidir.

**Tapşırıqlara aşağıdakı tələblər qoyulur:**

- tapşırıqlar səviyyələrə bölünmə xarakterlidir;
- tapşırıqlar tədris materialını kifayət qədər əhatə edirlər;
- tapşırığın məqsədi və deməli yerinə yetirilməsinin nəticələri dürüst ifadə edilır;
- tapşırıq şagirdin müstəqil olaraq onun öhdəsindən gələ bilməsi üçün nəzərdə tutulmalıdır. Bunun üçün tapşırıqda göstərişlər, ədəbiyyat, yerinə yetirilmə müddəti verilməlidir;

- tapşırıqlar onların yerinə yetirilməsinin müxtəlif üsullarını və başqaları ilə əməkdaşlıq imkanlarını nəzərdə tutur;
- tapşırıqlarda uçot, özünə nəzarət və nəzarət (məsələn, qrupda çıxış etmə) üçün imkanlar nəzərdə tutulur;
- şagirdə aydın olmalıdır ki, o, tapşırığın yerinə yetiriliməsi prosesində yardım üçün kimə və nə vaxt müraciət edə bilər;
- tapşırığın məzmunu lakin və yekun müzakirələrin keçirilməsini nəzərdə tutur.

Tapşırıqlar sisteminin yerinə yetirilməsi vasitəsilə ilk növbədə şagirdin fərdi inkişafı həyata keçirilir.

Laboratoriya-tapşırıq üzərində müstəqil işlənilməsi və dərs məşğələlərində iştirak etmək üçün şagirdin cədvəlində ayrılmış vaxtdır.

"Ev" – evdəki sərbəstliyə yaxınlaşdırılmış şəraitdir: şagirdin rahat işləməsi üçün hər hansı bir yerin mövcudluğu; kiminlə işləmək seçiminin azadlığı: məsləhətçilər qrupunun mövcudluğu və s.

İlkin nəzəri müddəaların reallaşması aspektində ən mühüm müəssisələrdən biri Dalton – planın realizə olunması formaları haqqındadır.

Dalton – planın realizəsinin dörd formasını – sinif dərs məşğələsi, laboratoriya məşğələsi və konfransı ayırmaq olar.

Sinif dərs məşğələlərinin əsas məqsədi nəzəriyyənin mənimsənilməsi, bacarıq və vərdişlərin təkmilləşdirilməsi və möhkəmləndirilməsindən ibarətdir. Burada mühazirələr, yoxlama dərsləri, kollektiv refleksiya dərsləri ola bilər, yəni bu sinif – dərs sisteminin tərkib hissəsidir. Dalton məktəbində bəzən müəyyən tablolar da qoyulurdu, məsələn, sinif dərs məşğələlərini buraxmaq məsləhət görülmür.

**Kollektiv dərslər aşağıdakı xüsusiyyətlərə malikdirlər.**

- praktiki fəaliyyət zamanı şagirdlərin əksəriyyətində meydana çıxır problemin mövcudluğu;
- müəllim – təşkilatçı müzakirə prosesinin iştirakçısıdır;
- şagird – iştirakçı təşkilatı fəaliyyətin subyektidir;
- kollektiv dərsin nəticəsi yaranmış suallar və çətinliklər vasitəsilə növbəti fəaliyyət mərhələsinə çıxışın əldə edilməsi ilə problemin hər hansı bir yolla (hər kəs üçün müxtəlif həllər ola bilər) həllinin müəyyən olunmasıdır.

Belə dərslərdə mühazirələr oxumaq; müzakirələr vaxtı elan edilmiş mövzudan yayınmaq; bitmiş xarakterli nəticələr çıxarmaq; çıxışları qiymətləndirmək olmaz.

**Laboratoriya məşğələsi. Laboratoriya məşğələlərinin əlamətlərinə aiddirlər:**

- zəruri ədəbiyyat, vəsait, sorğu kitablarının və s. bir yerə yığıldığı hər hansı yerin mövcudluğu;
- şagirdin öz tapşırığının yerinə yetirilməsi prosesində fikrə qapıla bilməsi üçün uzun müddətli vaxt (bu vaxt ərzində laboratoriya açıq qalmalıdır);
- bir və ya bir neçə məsləhətçinin mövcudluğu.

Məşğələ vaxtı şagird fərdi (lakin öz tempi, cütü, qrupu ilə) işləyir. O, məşğələlərdə digərləri üçün repetitor kimi də çıxış edə bilər. Həmçinin, şagird məşğələnin gedişində yaranmış suallar barəsində müəllim ilə məsləhətləşə də bilər. Müəllimin rolu ondan ibarətdir ki, o, məktəblilərə nəsihətlər verir. Şagirdlərin yerinə yetirdikləri işlərin nəticələri haqqında onlarla söhbətlər aparır, məqbulları qəbul edir və yerli tapşırıqlar verir. Laboratoriyaların gedişində problemin ümumi müzakirəsini təşkil etmək, fərdi və qrup işlərinə ehtiyac olmadan müdaxilə etmək olmaz. Müəllim burada şagirdlərin fəaliyyətlərini müşahidə etmək üçün böyük imkanlara malikdir.

**Konfrans.** Konfransın fərqləndirici xüsusiyyəti – inteqrativ xarakterli nəzəri məsələlərin müzakirəsinin təşkilindədir. İnsan problemlərinə və dəyərlərinə xüsusi diqqət ayrılır.

**Konfransın əsas əlamətləri:**

- hazırlıq mərhələsinin zəruriliyi;
- məruzələr formasında çıxışlar;
- çıxışlarda öz mövqeyinın ifadə edilməsinin mühümlüyü.

Dalton texnologiyadan şəraitində tədris məşğələlərinin təsnifatı bu cürdür. Rusiyada mövcud olan təsnifatlar ilə müqayisədə o, məşğələlərin əsas məqsədlər üzrə qruplaşdırılmasına daha yaxındır, lakin bu məqsəd hər məşğələdə daha sən üzə çıxır.

Dalton plan – saat məşğələlərin xüsusi formasıdır və həftədə bir dəfə keçirilə bilər.

Təcrübə göstərir ki, Dalton texnologiyalar və layihələr metodu çox zaman E.V.Bondarevskaya təsnifatı ilə pedaqoji mədəniyyətin peşəkar yaradıcı səviyyəsində çalışan müəllimlərin faizi daha yüksəkdir.

Dalton plan texnologiyası, müasir təhsildə şagirdlərin aktiv iştirakını artırmaqla yanaşı, onların şəxsiyyət kimi inkişafını da dəstəkləyir. Bu sistem, təhsil prosesini daha dinamik və interaktiv edir, eyni zamanda şagirdlərin gələcəkdə cəmiyyətə inteqrasiya olunmalarına kömək edir. Dalton planının tətbiqi, müasir təhsilin tələblərinə uyğun olaraq, şagirdləri analitik, yaradıcı və müstəqil düşünən vətəndaşlar kimi yetişdirmək məqsədini güdür.

**Dalton plan texnologiyası ilə bağlı suallar:**

1. Dalton planının əsas prinsipləri nələrdir və bu prinsiplər necə şagirdlərin öyrənmə prosesini təsir edir?
2. Dalton planının tətbiqi zamanı müəllimlərin rolu nədir və bu rolun şagirdlərin müstəqil öyrənməsinə necə təsir etdiyini düşünürsünüz?
3. Dalton planının müasir texnologiyalarla (məsələn, onlayn öyrənmə platformaları) inteqrasiyası necə mümkündür?

## 2.4. Psixologiya və pedaqogikanın tədrisində kompüter texnologiyalarından istifadə imkanları

Hazırki dövrdə məlumatların sürətlə artması, təlim fəaliyyətində texniki vasitələrin istifadəsini vacib və effektiv tədbir kimi ön plana çıxarır. Bu, təlimdə istifadə olunan texniki vasitələrin informasiya mübadiləsi vasitəsilə daha da güclənir və mənimsəmə prosesinin səmərəliliyini artırır.

Müstəqil dövlət quruculuğunun prinsiplərini əks etdirən yeni təhsil sistemində strategiya olaraq təlim prosesində informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə etmək, təhsil müəssisələrini kompüterlər və digər müasir təlim texnologiyaları ilə təmin etmək mühüm istiqamətlərdən biridir.

Fənlərin tədrisində tələbələrin bilikləri müstəqil surətdə əldə etmək işinə cəlb olunması vəzifələrinin həlli yolları müxtəlifdir. Tələbə bəzən son dərəcə çətin görünən yolu, illərlə davam edən, narahatlıqlarla dolu gərgin fəaliyyəti – axtarışları, səhvləri, kəşfləri izləyir. Elmi ideyaların hərəkət xətti şagirdin ideyalar hərəkət xəttinə çevrilir. İnformasiya texnologiyaları bu yolda onlara kömək edir. Elmi kəşfin müəllifi ilə birlikdə məktəblilər də uğursuzluqlara görə mütəssir olur, müvəffəqiyyət qazanıldığını gördükdə sevinc hissi keçirirlər.

Müasir dövrdə kütləvi kommunikasiya vasitələrinin inkişafının nə dərəcədə sürətlə irəlilədiyini müşahidə edirik. Bu vasitələrə müxtəlif çap məhsulları, kino, səs

yazıları, radio və televizor proqramları daxildir. Bu kütləvi kommunikasiya vasitələri şübhəsiz, şagirdlərin müxtəlif məlumatlarla tanış olmalarına və onları mənimsəmələrinə ciddi təsir göstərir. Məqsədli şəkildə bu vasitələri təlim prosesinə daxil etdikdə, şagirdlərin məlumatları qavraması və mənimsəməsinin effektivliyi daha da artır. Kino, səs yazıları, radio və televizor proqramları, ümumiyyətlə, təlimin texniki vasitələrini zənginləşdirməklə mühüm rol oynayır. Müasir pedaqoji prosesdə texniki vasitələrdən istifadənin genişlənməsi zəruridir; əks halda yalnız ənənəvi şifahi şərhlərlə şagirdlərin məlumat bazasını tam şəkildə qurmaq çətin olardı. Texniki vasitələr təlimin məzmununu artırmağa, şagirdlərin idrak fəaliyyətini stimullaşdırmağa və tədris metodlarını müxtəlifləşdirməyə imkan yaradır.

Tədris videoyazısında bəzən şair və yazıçı yaradıcılıq anlarında təsvir olunur. O düşünür, axtarır, lazım olan fikri, hətta bir sözü yerində işlədəndə fərəh hissi onu bürüyür. Şagirdlər də bu prosesdə yaxından iştirak edirlər. Onlar lap kiçicik şerin, yiğcam hekayənin belə necə çətinliklə başa gəldiyini aydın şəkildə görür, hər bir fəaliyyətin gərgin zəhmətin nəticəsi olduğunu başa düşürlər. Bu onlara hər bir işə böyük məsuliyyət hissi ilə yanaşmağı öyrədir.

Respublikamızın yeni təhsil sistemində fənlərin tədrisində təlim texnologiyalarının tətbiqi və inkişafı sürətlə yayılmaqdadır. Bu məqsədlə müasir təlim texnologiyaları avadanlıqlarının gətirilməsi problemi artıq

müəyyən dərəcədə həllini tapır. Təlim texnologiyalarının sürətli inkişafı nəzərə alınmalı və bu sahədə hazırlanan modellər və metodlar inkişafa uyğun şəkildə qurulub tətbiq olunmalıdır. Yalnız belə bir yanaşma təlim texnologiyalarının pedaqoji prosesdə uğurla tətbiq olunmasına imkan verə bilər.

**Psixoloji araşdırmalar göstərir ki, təlim fəaliyyətində texniki vasitələrin istifadəsi aşağıdakı dəyişikliklərə səbəb olur:**

1. Təlimin fəallığı artır və mövzunun öyrənilməsi başa çatdıqdan sonra şagirdlər həmin mövzunu daha dərindən müzakirə etməyə başlayırlar.
2. İnformasiyanın qavranılması prosesi əhəmiyyətli dərəcədə dəyişir və materialın başa düşülməsi üçün daha geniş imkanlar yaranır. Yeni biliklər əvvəlki biliklərlə əlaqələndirilərək zənginləşir, eyni zamanda idrak fəaliyyəti emosional fəaliyyətlə birləşir.
3. İnformasiyanın işlənməsi mərhələsində də əsaslı dəyişikliklər baş verir, təsəvvür ehtiyatları genişlənir.

Müasir təhsil prosesində əyani vasitələrin tətbiqi tədris prosesində cisimləri və hadisələri təmsil etməyə, həmçinin reallığın obrazlı modelini yaratmağa imkan verir. Bu funksiyalar sayəsində təlim texniki vasitələrindən istifadə şagirdlərin məhsuldarlığını artırır, onların idrak fəaliyyətini daha canlı və məhsuldar edir.

Təhsildə istifadə olunan texniki vasitələrin inkişaf tarixinə nəzər salsaq, görərik ki, onlar tarixən daim inkişaf etmiş və etməkdədir.

Müasir təlim texnologiyalarından biri olan audio-video texniki sistemin pedaoji prosesdə istifadə olunması məqsədəuyğundur. İnkişaf etmiş ölkələr bu prosesə əvvəlcə məişət televizorlarından istifadə etməklə başlamışlar. Kompüter texnologiyası müasir təlim texnologiyaları içərisində, şübhəsiz, ən yüksək reytinqə malikdir. Buna səbəb onların geniş şagird kütləsi üçün aydın, əyləncəli və istifadəsinin sadəliyi, eləcə də hazırlanmış proqramların yüksək keyfiyyətli olmasıdır.

Dünya və Avropa təhsil sisteminin ümumtəhsil məktəblərində səmərəli təlimin təmin olunmasına və pedaqoji sahədə daha ətraflı və dəqiq araşdırmalar aparmağa şərait yaradan müasir təlim vasitələri mövcuddur. Bu vasitələrdən ən müasir kompüter, interaktiv video, telekomunikasiya, CD-ROM, texnologiyası və süni intellekt proqramı və s. göstərmək olar. Bu kini ən müasir texnologiyalardan hazırda ABŞ və Qərb məktəblərində müvəffəqiyyətlə istifadə olunur. Belə növ texnologiyaların, son illərdə təhsilimizə gətirilməsinə başlanmışdır.

Müasir ali məktəbin təlim texnologiyaları avadanlığın seçilməsi, təkilləşdirilməsi və tətbiq olunması problemini həll etmək üçün müəyyən tədbirlərin görülməsi və bunların sadə səviyyədən ən yüksək səviyyəyə,

təhsilimizə gətirilməsinə doğru sürətli, həm də iqtisadi cəhətdən səmərəli işlər həyata keçirilir.

Təhsildə tətbiq olunan təlim texnologiyaları vasitələri elmi-pedaqoji, metodik, estetik, iqtisadi və s. tələblərə cavab verməlidir. Təlim texnologiyalarını texniki vasitələri elmlərin əsaslarının mənimsənilməsinə, qazanılan biliklərin möhkəmlənməsinə, şüurlu başa düşülməsinə, təfəkkürün inkişafına, dünyagörüşünün genişlənməsinə, mənəvi keyfiyyətlərinin formalaşmasına geniş imkan yaradır. Bu vasitələr müəllim və şagirdlərin təlim əməyinə uyğun olmaqla, həm də səmərəli, metod və proyomların yaradılması, seçilməsi və tətbiqinə, onun inkişafına şərait yaradır.

Pedaqoji prosesdə audio-video texniki sistemindən istifadə texnologiyası və tətbiq olunmasını açıqlayaq : Məlum olduğu kimi, məktəblərimizdə pedaqoji prosesin əyaniliyinin təmin edilməsinə 1930-cu illərdən başlanmışdır. Bu vaxtdan akustik (audio), vizual (video), və audio-vizual (audio-video) və s. ekran vasitələri tədrisə və təlimə daxil olmuşdur. Bunlardan indi də məktəb təcrübəsində istifadə edilməkdədir. **Bu vasitələri üç yerə bölmək olar:**

- səs vasitələri;
- ekran vasitələri;
- proqramlaşdırılmış audio-video vasitələr.

Akustik vasitələrdən istifadə zamanı informasiya şagirdə akustik kanallarla çatdırılır. Buraya radio,

qrammafon və maqintafon lent yazıları, məktəb radio qovşağı və s. daxildir.

Vizual vasitə isə görmə vasitəsidir ki,burda informasiya şagirdə görmə kanalı ilə çatdırılır. Buraya da səssiz diapozitiv , diafilim, kodopozitiv kinofilmlər və s. daxildir.

Audiovizul vasitələrdə isə informasiya həm eşitmə, həm də görmə kanalı ilə çatdırılır. Bunları isə səsləndirilmiş diapozitivlər, diafilimlər, kodopozitivlər, epifilimlər, sənədli, elmi-kütləvi və tədris filimləri daxildir.

Müasir dövrdə təlim prosesində audiovizual vasitələrin istifadəsi, müəllimlərin məlumat vermə funksiyasını yerinə yetirməsinə kömək edir. Xüsusilə televizor proqramlarının rolu mühüm əhəmiyyət kəsb edir. Təlimdə televizor vasitəsilə məlumatların verilməsi şagirdlərin psixi inkişafına mühüm təsir göstərir. Bu, xüsusilə hissi idrakın inkişafı üçün geniş imkanlar yaradır. Audiovizual vasitələr, şagirdlərin mövzuları daha dəqiq və aydın şəkildə qavrayabilmələri üçün əvəzolunmazdır. Təlimdə bu vasitələrin istifadəsi təfəkkür və təxəyyülün inkişafına geniş imkanlar açır. Obrazlarla işləmə, şagirdlərin obrazlı təfəkkürünü inkişaf etdirir və onların təxəyyülünü zənginləşdirir. Ekran vasitəsilə məlumatların təqdim olunması şagirdlərin yaddaşını gücləndirir və məlumatın daha uzun müddət yadda qalmasını təmin edir.

Televizor proqramlarının tədris texnologiyasındakı üstünlüyü, həm məlumat vermə bacarığı, həm də psixoloji

təsir gücüdür ki, bu da onu digər kütləvi kommunikasiya vasitələrindən daha səmərəli edir.

Tədris kinoları isə hadisələri istənilən şəkildə dəyişdirərək dərsin məqsədinə uyğun hala gətirir. Bu da müəllimə müxtəlif hadisələri müqayisə etməyə və şagirdlərə daha dəqiq anlayışlar təqdim etməyə imkan verir.

Televiziya proqramlarının istifadəsi təkcə tədris kinoları ilə məhdudlaşmır; müəllim bədii, siyasi və elmi proqramları da şagirdlərlə müzakirə etməli, beləliklə onların dünyagörüşünü və əxlaqi dəyərlərini inkişaf etdirməlidir. Bu müzakirələr proqramların məzmununu anlamağa və şagirdlərin münasibətini formalaşdırmağa kömək edir.

Xüsusi ilə kinodan geniş istifadə əyaniliyin intensivliyini artırır. Kino bütün hadisələr sistemini sinifdə canlandırmağa imkan verən ən qüvvətli, ən ecazkar vasitələrindən biri olaraq elmlərin bütün sahələrindən dərindən mənimsənilməsinə geniş imkan yaradır, təlim-tərbiyəni üzvi sürətdə əlaqələndirir, şagirdləri yüksək əxlaqi ruhda tərbiyə edir.

Müasir dövrdə proqramlaşdırılmış təlimdən və xüsusən də proqramlaşdırılmış təlim maşınlarından istifadəyə müəyyən önəm verilir. Proqramlaşdırılmış təlim, əvvəlcədən hazırlanmış proqram əsasında bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesini idarə etməklə təlim verməyi nəzərdə tutur. Bu idarəetmə, şagirdlərin fikri fəaliyyətini daxili və xarici əlaqələr vasitəsilə

yönləndirməyi əhatə edir. Proqramlaşdırılmış təlimdə veriləcək materiallar "porsiyalara" ayrılır və hər bir porsiya ciddi məntiqi ardıcıllıqla təqdim olunur. Hər bir növbəti porsiyanı anlamaq və mənimsəmək üçün əvvəlki porsiyalar mükəmməl mənimsənilməlidir. Bu ardıcıllığa riayət olunmazsa, sonrakı materialların öyrənilməsi mümkün olmur.

Şagirdlər hər porsiyadan sonra müvafiq yoxlama sualları ilə qarşılaşırlar və bu suallara cavab verərək öz cavablarını yoxlayırlar. Cavablar düzgün olduqda, onlar növbəti porsiyanı öyrənməyə davam edirlər. Əks halda, əvvəlki mövzulara qayıdaraq təkrarlama etmələri tələb olunur. Proqramlaşdırılmış təlimin məqsədi şagirdlərin öyrənmə proseslərini daha səmərəli hala gətirmək və onlara çoxlu məlumat təqdim etməkdir. Bu metodla hər bir şagirdlə fərdi şəkildə işləmək mümkün olur və xüsusilə təlimin maşınlardan istifadə edilməsi işin səmərəliliyinə mühüm təsir göstərir. Hal-hazırda kompüterlərin istifadəsi bu baxımdan əhəmiyyətli bir yer tutur.

Təlimin kompüterləşdirilməsi bütün fənlər üzrə bacarıq və vərdişlərin qazanılmasına, şagirdlərin idrak və yaradıcılıq qabiliyyətlərinin inkişafına, təlim və tərbiyə prosesinin idarə edilməsini optimallaşdırmağa və fərdi xüsusiyyətlərə uyğun təlim aparmağa imkan verir.

**Ölkəmizdə aparılmış psixoloji tədqiqatlar təlimdə kompüterlərin istifadəsinin aşağıdakı üstünlüklərini göstərmişdir:**

- kompüter vasitəsilə həyata keçirilən işin yeniliyi şagirdlərin ona marağını artırır;
- bu vasitə təlim prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir;
- fərdi ünsiyyət funksiyasını yerinə yetirir;
- kompüter şagirdlərin təlimə fəal qoşulmasına və öyrənilən materialın vacib cəhətlərinə diqqət etməyə imkan yaradır;
- təlimdə müxtəlif tapşırıqların tətbiqi imkanları genişlənir, müxtəlif situasiyaların modelləş-dirilməsi tapşırıqlarından geniş istifadə olunur;
- şagirdlər kompüterin köməyi ilə əvvəllər əldə edə bilmədikləri məlumatlardan istifadə imkanı qazanırlar.

Bütün bu amillər göstərir ki, proqramlaşdırılmış təlim müasir dövrdə böyük üstünlüklərə malikdir. Lakin bu metodun bəzi çatışmazlıqları da mövcuddur. İlk növbədə, bütün müəllimlər bu üsuldan eyni səviyyədə istifadə etməkdə çətinlik çəkirlər. Həmçinin, proqramlaşdırılmış təlim fərdiləşdirmə baxımından çox imkan təqdim etsə də, müəllimin şagirdlə canlı, emosional ünsiyyətini əvəz edə bilməz. Təlimdə texniki vasitə kimi artıq uzun müddətdir ki, maqnitafon geniş istifadə olunur. Bu vasitənin xüsusilə xarici dilin öyrənilməsində əhəmiyyəti böyükdür. Məktəblərdə fəaliyyət göstərən linqafon kabinələrinin rolu da xüsusi qeyd edilməlidir.

Maqnitafon əvvəlcə düzgün tələffüz vərdişlərinin yaradılması üçün istifadə olunur. Maqnitafon olmadıqda, tələffüzün düzgünləşdirilməsi üçün əsas məsuliyyət müəllimə düşür. Bu isə təlimin fərdiləşdirilməsini çətinləşdirir. Müasir dövrdə maqnitafon müəllimlər üçün ən yaxın köməkçi olub. Maqnitafon vasitəsilə ifadələr dəfələrlə təkrarlana bilir və şagirdlər düzgün tələffüzü dəfələrlə dinləyərək öyrənirlər. Maqnitafonla təkrar dinləmə nəticəsində şagirdlər öz və yoldaşlarının səhvlərini daha asanlıqla başa düşür və düzəldirlər.

Müəllimin düzgün tələffüzü nəticəsində lentə yazılmış səslər dinlənilir və şagirdlər diktorun istifadə etdiyi sözləri təkrar edirlər. Müşahidələr və təcrübələr göstərir ki, xarici dilləri öyrənən şagirdlər öz müəllimlərinin nitqini yaxşı başa düşdükləri halda, başqasının söylədiyi sözlər və qrammatik konstruksiyalar əsasında qurulmuş danışığını anlamada çətinlik çəkirlər. Bu vəziyyətdə maqnitafon şagirdlərin eşitmə və anlama bacarığının inkişafında mühüm rol oynayır. Eşitmə və anlama bacarığının yaradılması üçün fasiləsiz məşqlər aparılmalı və daha mürəkkəb bacarıqların inkişafına yönəldilməlidir. Maqnitafonla keçirilən belə məşqlər aşağıdakı kimi ola bilər: diktorun söylədiyi mətn əsasında sual-cavab, diktorun verdiyi sözlər əsasında hekayə düzəltmə və s. Suallar mövzu ilə əlaqələndirilərək seçilməlidir ki, şagirdlər nəticədə diktorun suallarını istifadə edərək öz danışığını inkişaf etdirə bilsinlər.

Yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, təlimdə texniki vasitələrin istifadəsi böyük əhəmiyyət daşıyır. Lakin texniki vasitələrdən həddindən artıq istifadə edilməməlidir. Burada müəyyən psixoloji və pedaqoji tələblərə riayət olunmalıdır. İlk növbədə, texniki vasitələr tətbiq edilərkən şagirdlərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Texniki vasitələrin tətbiqi şagirdlərin idrak imkanlarına uyğun olmalıdır. Həmçinin, məktəbin mühiti də nəzərə alınmalı, ehtiyac olmadan texniki vasitələrdən istifadə edilməsi düzgün olmaz. Belə halda şagirdlərdə həmin vasitələrə qarşı maraqsızlıq və psixoloji doyumluluq yaranır.

Müəllim göstərilən ənənvi vasitələrdən istifadə edib şagirdlərə çatdırdığı və ya çatdıra bilmədiyi informasiyaları müasir (interaktiv video) audio-video texniki sisteminin geniş imkanları vasitəsilə daha asan və sadə yolla çatdırıla bilər.

Təlimin müasir texniki vasitələri ənənəvi ekran vasitələrinin funksiyalarını öz üzərinə götürmək imkanına malikdir. Müasir texnologiyaların təhsil müəssisələrində geniş tətbiqi üçün əlverişli şərait yaranmışdır.

**Bu texnologiyaların bir sıra üstünlükləri mövcuddur:**

- müəllimdən dərin texniki biliklər tələb olunmur və texniki hazırlıq prosesinə çox vaxt sərf edilmir;
- təhlükəsizlik texnikası, yanğından mühafizə avadanlıqları və digər əlavə vasitələrin əldə

edilməsinə ehtiyac qalmır, müəllim və şagirdlər fiziki və psixoloji gərginlikdən azad olurlar.

- müəllim pedaqoji, metodik və psixoloji baxımdan daha sərbəst olur, dərs vaxtının seçilməsinə daha rahat qərar verir.
- ənənəvi texniki vasitələr müasir texnoloji avadanlıqlarla əvəz olunduğuna görə onların təmiri və enerji sərfiyyatı ilə bağlı xərclər azalır.
- yeniliklər şagirdlərdə təlim-tərbiyəyə marağı artıraraq müəllimin işinə dəstək verir. Şagirdlər videokameralardan istifadə edərək, müəllimin rəhbərliyi ilə fənn proqramına uyğun obyektləri çəkib sinifdə nümayiş etdirə bilərlər. Bu cür tədbirlər onların interaktiv təlim motivasiyasını, fərdi düşünmə, qavrama, yaradıcılıq, tədqiqat aparma qabiliyyətini və politexnik dünyagörüşünü inkişaf etdirir. Nəticədə şagirdlərdə müstəqil təlimə maraq daha da artır;
- bütün fənnlər üçün vahid stansionar audio-video texniki sistemi kabineti təşkil etmək olar;
- sistemi diyircəklər üzərinə quraşdırıb sinifdən-sinifə keçirməklə müəllimin istifadəsinə vermək mümkündür.

Beləliklə, kompüterləşmə ilə müqayisədə daha az maliyyə vəsaiti tələb edən interaktiv videodan müvəqqəti olaraq istifadə etmək mümkündür [43, s.326].

Müasir təlim metodları və İKT-nin tətbiqi sinif mühitində dəyişikliklər etməyə, müəllim və şagirdlər arasında, həmçinin şagirdlərin bir-biri ilə və məktəb ilə ev arasında qarşılıqlı əlaqələrin qurulmasına şərait yaradır.

Hər bir müəllim bu nəzəriyyələri diqqətlə öyrənərək, tədris metodlarını məqsədyönlü şəkildə tətbiq edə və səmərəli öyrənmə mühitinin yaradılması üçün təlim proqramları hazırlaya bilər. Müasir təlim yanaşmaları və İKT-nin istifadəsi, cəmiyyət üçün dəyərli vətəndaşların yetişdirilməsinə yönəlmiş, fəal və maraq dairəsi geniş olan şagirdlərin iştirak etdiyi siniflərin formalaşmasına kömək edir. Bu isə dünyanın hər yerində təhsildə innovasiyalara və təfəkkürün inkişafına üstünlük verən müəllimlərin daimi axtarışlarını əks etdirir.

Təhsilin informatlaşdırılması pedaqoji innovasiyaların əsasını təşkil edir. **Təhsil sahəsində informasiya texnologiyalarının tətbiqi aşağıdakı funksiyaları yerinə yetirir:**

1. **İnformasiya-öyrədici funksiya.** Məqsəd yeni elmi-metodiki biliklərin, qabaqcıl pedaqoji texnologiyaların yayılmasıdır.
2. **Formalaşdırıcı funksiya.** Məqsəd öyrənilən hadisə və obyektlərin modelləşdirilməsi, quraşdırılması, tədris prosesi və onun ayrı-ayrı elementlərinin (məzmun, təlim formaları) layihələndirilməsi ilə əlaqədar metodik bacarıqlar formalaşdırılmalıdır.

3. Məqsəd biliklərlə nəzarət vasitələrindən ekspert öyrədici sistemlərdən, praktik məsələlərin dialoq əsasında həlli vasitələrindən, əks-əlaqənin təşkili üçün proqramlaşdırılmış təlim elementlərindən istifadə edərək təlim prosesini idarə etməkdir.
4. **Diaqnostik funksiya.** Məqsəd təlimin keyfiyyətinə nəzarət deməkdir.
5. **Tədqiqat funksiyası.** Məqsəd tələbələrdə yaradıcılıq qabiliyyətini formalaşdırmaqdır. Bu zaman imtiasiya-modelləşdirmə sistemlərindən, inteqrallaşdırılmış tətbiqi-proqram paketlərindən, evristik tapşırıqlardan istifadə mümkündür.

Qeyd olunan funksiyalar ayrılıqda deyil, qarşılıqlı əlaqədə fəaliyyət göstərir və müasir təhsilin prinsipləri ilə vəhdət təşkil edir. Təhsildə İKT-nin tətbiqinin pedaqoji səmərəsinin artırılması və keyfiyyətin yüksəldilməsi üçün bu prosesin elmi əsaslarla tədqiq olunması vacibdir. Son 30 ildə müxtəlif ölkələrdə bu istiqamətdə genişmiqyaslı araşdırmalar aparılmışdır. Bu sahədə fəaliyyət göstərən böyük elmi tədqiqat mərkəzlərindən biri də YUNESKO-nun nəzdində fəaliyyət göstərən “Təhsilin informatlaşdırılması” İnstitutudur.

Tədqiqatlar göstərir ki, informasiya texnologiyalarının düzgün elmi-metodik tətbiqi təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər. Həmçinin müasir təhsilin vəziyyəti ilə informasiya cəmiyyətinin sürətli inkişafı arasında yaranan bəzi ziddiyyətlər də tədqiq olunur.

**Bu ziddiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:**

1. Tədris prosesində istifadə edilən informasiyanın həcminin və mürəkkəbliyinin sürətlə artması ilə insanın intellektual imkanları və təhsilə ayrılan vaxtın məhdudluğu arasındakı uyğunsuzluq.
2. Dövlət təhsil standartlarına uyğun kadr hazırlığı tələbi ilə fərdi yanaşma, diferensial təlim və fərdi təhsil trayektoriyasının reallaşdırılması ehtiyacı arasında ziddiyyət. Xüsusilə Boloniya prosesinə keçidlə bu məsələlər daha da aktuallaşmışdır.
3. Kompüter texnologiyalarının davamlı inkişafı ilə onların təlim prosesində səmərəsiz istifadəsi arasındakı ziddiyyət.

**Bundan əlavə, təhsildə İKT-nin tətbiqi ilə bağlı digər problemlər də mövcuddur:**

1. İnformasiya texnologiyalarının inkişafı nəticəsində yeni pedaqoji imkanların yaranması və təlimin məzmununun dəyişməsi.
2. Kompüter əsaslı yeni nəsil dərsliklərin hazırlanması, onların elektron formatlı əlavələrinin yaradılması, Tədris-Metodik Komplekslərin (TMK) hazırlanması və onların istifadəsi üçün metodikanın işlənilməsi.
3. Fənlərarası və fənlərdaxili inteqrasiyanı təmin edən İKT əsaslı tədris metodlarının formalaşdırılması.

Bu problemlərin siyahısını daha da genişləndirmək mümkündür. Təhsil sistemində mövcud çətinliklərin aradan qaldırılması üçün məqsədyönlü strategiya əsasında məktəblərdə informasiya təhsil mühiti formalaşdırılmalı və bu mühitə uyğun tədris metodikaları hazırlanmalıdır. Elektron metodikanın tətbiqi və onun tədqiqi pedaqoji ictimaiyyətin qarşısında duran əsas vəzifələrdən biridir.

Müasir informasiya cəmiyyətində tələbə lazımi məlumatları axtarmaq, seçmək, təhlil etmək, yeni informasiya yaratmaq, bu biliklər əsasında öz mövqeyini formalaşdırmaq, qərar qəbul etmək və onu həyata keçirmək bacarıqlarına sahib olmalıdır. Müasir müəllimin əsas vəzifəsi isə şagirdlərə öyrənməyi öyrətməkdir. Bunun üçün müəllim daim öz bilik və bacarıqlarını inkişaf etdirməli, müasir təhsil yanaşmalarına uyğun fəaliyyət göstərməlidir.

Elmi biliklərin həcmi sürətlə artır, tədris prosesinin məzmunu isə davamlı olaraq təkmilləşdirilir. Yeni biliklər məktəb proqramlarına mütəmadi olaraq əlavə olunduğu halda, bu materialların tədrisinə ayrılan vaxt məhdud olaraq qalır. Belə şəraitdə müasir texnologiyalardan və innovativ təhsil metodlarından istifadə zərurətə çevrilir. Əvvəllər müəllim əsas informasiya mənbəyi rolunu oynayırdısa, bu gün onun funksiyası dəyişmişdir. İndi müəllim şagirdlə müxtəlif informasiya mənbələri arasında vasitəçi rolunu oynayır və onlara informasiya resurslarından səmərəli istifadə etməyi, informasiya proseslərini düzgün mənimsəməyi öyrətməlidir.

Təhsil sistemində yenidənqurma çərçivəsində bir sıra maraqlı layihələr həyata keçirilməkdədir. Belə təşəbbüslərdən biri də Səhiyyə və Təhsil Nazirliklərinin birgə əməkdaşlığı ilə hazırlanmış, İİV/QİÇS-ə qarşı mübarizəni gücləndirmək məqsədi daşıyan "Həyati Bacarıqlara Əsaslanan Təhsil" fakültativ kursudur. Bu kursun əsas məqsədi gənclərdə məsuliyyət hissini inkişaf etdirmək, sağlam həyat tərzini şüurlu şəkildə seçməyə yönləndirmək, riskli davranışları minimuma endirmək, şəxsiyyətin potensialını üzə çıxarmaq və effektiv davranış strategiyalarını formalaşdırmaqdır.

Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təchiz edilməsi və ölkəmizin təhsil sisteminin rəqəmsallaşdırılması istiqamətində aparılan tədqiqatlar nəticəsində bir sıra innovasiyalar müəyyən edilmişdir. Bu yeniliklər milli təhsil sisteminin dünya standartlarına uyğunlaşdırılmasına və inkişafına mühüm töhfə verir.

Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təchiz olunması və ölkəmizin təhsil sisteminin rəqəmsallaşdırılması Azərbaycan Respublikasında qəbul edilmiş müvafiq dövlət proqramlarında öz əksini tapmışdır. Bu proses Azərbaycan Respublikası Prezidentinin 21 avqust 2004-cü il tarixli 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007)" və 10 iyun 2008-ci il tarixli "Azərbaycan

Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012)" çərçivəsində həyata keçirilmişdir.

Bu proqramların əsas məqsədi informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltmək, bütün təhsil pillələri üzrə vətəndaşlar üçün bərabər imkanlar yaratmaq, ölkənin təhsil informasiya sistemini qlobal təhsil şəbəkəsinə inteqrasiya etmək və cəmiyyəti rəqəmsal mühitə hazırlamaq olmuşdur.

**Təhsil sisteminin rəqəmsallaşdırılması istiqamətində aşağıdakı əsas tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:**

- Təhsil sahəsində vahid informasiya məkanının formalaşdırılması;
- Kompüter texnologiyalarının mənimsənilməsi və onlardan səmərəli istifadə imkanlarının genişləndirilməsi;
- Təhsil sisteminin idarə edilməsində səmərəliliyin artırılması;
- Elmi-metodiki fəaliyyətin inkişaf etdirilməsi və effektivliyinin yüksəldilməsi;
- Beynəlxalq informasiya şəbəkələri vasitəsilə dünya ölkələrinin təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi.

Bu tədbirlərin icrası təhsil sisteminin modernləşdirilməsinə, informasiya texnologiyalarının tədris prosesinə inteqrasiyasına və müasir dövrün tələblərinə

uyğun bir təhsil mühitinin formalaşdırılmasına mühüm töhfə vermişdir.

Vahid informasiya mühitindən səmərəli istifadəni təmin etmək və proqramlarda müəyyən edilmiş məqsədlərə nail olmaq üçün **aşağıdakı vəzifələrin kompleks şəkildə həlli zəruridir:**

1. Ümumtəhsil məktəblərinin müasir kompüter avadanlıqları ilə təchiz edilməsi, təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının (İKT) infrastrukturunun inkişaf etdirilməsi. **Bu məqsədlə:**

- təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi;
- kompüter və digər ikt avadanlıqlarına texniki dəstək və nəzarət sisteminin təkmilləşdirilməsi;
- təhsil müəssisələri arasında əlaqələrin inkişaf etdirilməsi;
- informasiya şəbəkəsinin idarə olunması və nəzarət mexanizmlərinin yaradılması;
- internet xidmətlərinin optimallaşdırılması və məktəblərin internetə çıxışının təmin edilməsi nəzərdə tutulur.

2. Ümumtəhsil məktəblərində çalışan müəllimlərin, inzibati və texniki işçilərin İKT sahəsində bilik və bacarıqlarının artırılması, onların bu texnologiyalardan tədris və idarəetmə sahəsində səmərəli istifadəsinin təmin edilməsi.

3. Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə dair normativ və metodiki bazanın təkmilləşdirilməsi, bütün fənlər üzrə müasir elektron və elmi-metodiki tədris vəsaitlərinin hazırlanması və geniş yayılması, e-təhsil (E-Learning) resurslarının yaradılması və tədris prosesinə inteqrasiyası.

4. Tədris prosesində Azərbaycan dilində istifadə edilən müasir elektron tədris materiallarının, elektron dərsliklərin, elektron kitabxanaların və rəqəmsal tədris resurslarının hazırlanması, yayılması və tətbiqi.

5. Şagirdlər üçün distant təhsil xidmətlərinin yaradılması və ölkə daxilində distant təhsilin inkişafına yönəlik tədbirlərin həyata keçirilməsi.

6. Təhsil sisteminin idarə edilməsində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi. **Bu məqsədlə:**

- təhsil sahəsində vahid informasiya sisteminin qurulması,
- təhsilin idarə olunmasında informasiya sistemlərinin və texnologiyalarının səmərəli istifadəsinin təmin edilməsi,
- təhsilin idarə edilməsi üçün məlumat sistemlərinin (tims) inkişaf etdirilməsi,
- “elektron hökumət” prinsiplərinin təhsil sahəsində tətbiqinin genişləndirilməsi,
- təhsilin idarə olunması ilə məşğul olan dövlət qurumlarının ikt avadanlıqları və müvafiq

proqram təminatı ilə təchiz edilməsi nəzərdə tutulur.

Bu tədbirlərin həyata keçirilməsi ölkənin təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, innovativ metodların tətbiqinə və tədris prosesinin keyfiyyətinin artırılmasına imkan yaradacaqdır.

Müasir təlimin səmərlilyi və intensivliyinin, dünya standartlarına müvafiq səviyyəyə qaldırılmasının faktorlarından və vasitələrindən biri məhz əyaniliyin kompleks təmin olunması, yeni təlim texnologiyasının yeni-yeni təhsil avadanlıqlarına uyğun yaradılması və kompüterləşmənin təhsilimizdə həyata keçirilməsidir.

Əlbəttə, dövrümüzün geniş və zəngin informasiya axını ilə səciyyələnir. Bu genişliyi və zənginliyi izləmək, bunlardan səmərəli istifadə etmək, elmin son naliyyətlərinə bələd və onlara sahib olmaq imkanları şəraitində müasir kompüter texnologiyalarının üstünlüyünü nəzərə alaraq təhsil müəssisələrinin kompüterləşdirilməsi başa çatdırılmalıdır.

Kompüter texnologiyalarının psixologiya və pedaqogika sahəsində istifadəsi, müasir təhsil sisteminin inkişafında müstəsna əhəmiyyət kəsb edir. Bu texnologiyalar, tələbələrin bilik və bacarıqlarını artırmaqla yanaşı, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, psixoloji dəstəyi təmin etmək və təhsilin keyfiyyətini yüksəltmək üçün geniş imkanlar təqdim edir. Gələcəkdə bu texnologiyaların daha da irəliləməsi, təhsil prosesini daha da səmərəli və effektli edəcəkdir.

**Kompüter texnologiyalarının psixologiya və pedaqogika sahəsində istifadəsi ilə bağlı suallar:**

1. Kompüter texnologiyalarının interaktiv öyrənmə mühitlərinə təsiri nələrdir və bu mühitlərdə tələbələrin motivasiyasını necə artırır?
2. Kompüter texnologiyaları vasitəsilə məlumatın asanlıqla əldə edilməsi tədris prosesini necə dəyişir?
3. Distant təhsil imkanları, xüsusilə pandemiya dövründə, tələbələrin təhsil almasına hansı təsirləri göstərdi?
4. Kompüter texnologiyalarının psixoloji dəstək və resurslar təqdim etməsi tələbələrin emosional sağlamlığına necə müsbət təsir edir?

## 2.5. Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında interaktiv metodlardan istifadə

Pedaqogikanın ənənəvi və interaktiv metodlarla tədrisi tələbələrin peşə hazırlığına təsirinin əsas göstəricisi öyrənənlərin ali təhsil motivlərinin müxtəlifliyi ilə izah olunmalıdır. Açıq etiraf olunmalıdır ki, pedaqogikanın ənənəvi metodlarla tədrisində tələbələrin qazanmış olduqları müsbət motivlər, interaktiv metodlarla müqayisədə çox aşağıdır. Tələbənin sosial şəxsiyyət kimi formalaşması onun ali təhsil müəssisəsində təhsil alması və müəyyən bir sosial qrupa aid olması ilə xarakterizə olunur. Ali məktəbdə təhsil alma prosesi, tələbənin davranış motivlərinin şüurlu şəkildə formalaşdığı, məqsədyönlü fəaliyyətin inkişaf etdiyi, müstəqillik və təşəbbüskarlıq kimi keyfiyyətlərin möhkəmləndiyi bir dövrdür. Bu mərhələdə tələbə özünüidarəetmə bacarıqlarını inkişaf etdirir, əxlaqi məsələlərə daha çox diqqət yetirir və dünyagörüşünü genişləndirir. Bununla yanaşı, tələbə əqli, əxlaqi və ictimai-siyasi baxımdan yetkinləşir, maraqları daha dərin və əhatəli olur.

İnteraktiv təlim metodlarının psixologiya və pedaqogikanın tədrisində tətbiqi tələbələrdə təfəkkürün inkişafı, dialoqun aparılması bacarığı, demokratik münasibətlərin formalaşması, müxtəlif mənbələrdən bilik qazanma inkanları, təlim prosesində fəallıq, qazanılan bilik və bacarıqların tədqiqat zamanı qazanılması və dərk edilməsi, problemin həllində biliklərin müstəqil əldə

edilməsi və mənimsənilməsi üzrə müsbət motivlərin qazanılmasını rellaşdırır.

İnteraktiv təlim metodlarından səmərəli istifadə edərək pedaqogikanın tədrisində aparılan qrup işləri, tələbələrin müəlllim hazırlığı səviyyəsinin yüksəldilməsinə təsir edən mühüm motivləri olan öyrədici (tədqiqatın aparılması imkanı, müxtəlif iş formalarından istifadə və təhliletmə bacarıqları), tərbiyəedici(əməkdaşlıq, bir-birini dinləmək bacarığı, fikirlərinə hörmətlə yanaşmaq), inkişafetdirici (fəallıq, adaptasiya qabiliyyəti, yaradıcılıq, öz fikrini çatdırmaq imkanı, təfəkkürün inkişafı) amillər səriştənin yüksəlməsini həyata keçirir.

Ənənəvi təlimdən fərqli olaraq pedaqogikanın interaktiv metodlarla tədrisi, pedaqoji kadr hazırlığında müəllimin "bələdçi" funksiyası üzrə zəruri bilik, bacarıq qazanmasını və bu rolda iştirak etməsini optimallaşdırır. Gələcəyin müəllimi psixoloji və təşkilati dəstəkləmənin, fikrin təhrik edilməsi, məlumatla təmin etmə kimi səriştənin qazanmasına məhz pedaqogikanın interaktiv metodlarla tədrisi prosesində nail olur.

**İnteraktiv metodla pedaqogikanın ali məktəblərdə tədrisi gələcək müəllimlərin yeni keyfiyyətlər və davranış xüsusiyyətlərinin qazqanmalarına şərait yaradır:**

- gələcək fəaliyyətində öyrənənlərə xüsusi etibar və hörmətlə fərdi yanaşma;
- öyrənənlərin daim dəstəklənməsi;
- şagirdlərin qabiliyyətlərinə inam;

- şagirdlərdə öyrənmə motivasiyası və stimulun yaradılması və s.

Gələcək müəllimlərin təlim-tərbiyə prosesinin bütün aspektlərini daha səmərəli təşkil etməsi, onların şəxsiyyətin hərtərəfli inkişafına və formalaşmasına yönəlməsi müasir dövrün əsas tələblərindən biridir. Bu sahədə yüksək peşəkarlığın təmin edilməsi təhsilin keyfiyyətinin artırılmasına və cəmiyyətin inkişafına mühüm töhfə verir.

Pedaqogikanın interaktiv metodla tədrisi fənnin imkanlarını genişləndirir. Kadrların hazırlığında tələb-təklif prinsipini reallaşdırır. Gələcək fəaliyyətində aşağıdakı qabiliyyət və bacarıqların qazanmalarını həyata keçirir.

- konstruktiv;
- kommunikativ;
- təşkilatçılıq;
- qnostik;
- didaktik;
- diaqnostik;
- kreativ;
- yeni pedaqoji texnologiya;
- pedaqoji yaradıcılıq;
- pedaqoji müşahidəçilik;
- pedaqoji ünsiyyət;
- innovasiya üslubu və s.

Müşahidələr göstərir ki, konstuktiv, kommunikativ, təşkilatçılıq və qnostik bacarıqların mənimsənilməsi

pedaqoji kadrların hazırlığında daha çox əhəmiyyət daşıyır.

Müasir dövrdə informasiya axınının sürətlə artması və texnologiyaların inkişafı cəmiyyətin inkişaf meyillərinə yanaşmanı dəyişir. Qloballaşan dünyada müəllim üçün informasiya cəmiyyətinin fəal üzvünə çevrilmək, ünsiyyət bacarıqlarına yiyələnmək, təfəkkür mədəniyyətini formalaşdırmaq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək zəruri ehtiyaca çevrilmişdir.

İnteraktiv metodla pedaqogikanın tədrisi tələbələrin Azərbaycanda qəbul olunmuş mövcud kurikulum modelinə təhsilin məzmunu (standartlar), strategiyalar (pedaqoji texnologiyalar), qiymətləndirmə mexanizmlərinin mənimsənilməsi, praktik təcrübələrdə, sınaq dərslərində bacarıqla tətbiqinə zəmin yaradır.

Tərbiyə, təlim və tədrisin forma və metodlarını öyrənən elm olan pedaqogika interaktiv metodla tədris olunanda onun mahiyyətində baş verən texnoloji dəyişikliklər tələbənin müasir kadr kimi hazırlığına öz təsirini göstərir. İnteraktiv səciyyə daşıyan pedaqogika kadrların pedaqoji prosesdə tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafını vəhdətdə olmasını təmin etmək bacarığını aşılayır.

İnteraktiv pedaqogika ənənəvi yanaşmadan fərqli olaraq tələbələrin təlim məşğələlərində qarşılıqlı anlaşma, qarşılıqlı (təsir) əlaqə və qarşılıqlı zənginləşməni təmin edir.İnteraktiv metodlar pedaqogikada tədris materialları əvəz edə bilmir. Buna baxmayaraq həmin materialın

mənimsənilməsində tələbəyə kömək edir, fikirləri, münasibətləri, vərdişləri və davranışları formalaşdırır. Qeyd olunan amillər əsasında tələbələrdə motivlərin (maraqların) yaranmasına təsir göstərən interaktiv metodların hər birinin didaktik imkanları müəllim tərəfindən müəyyən olunmalıdır. Müəllim təlim məşğələnin növündən (mühazirə, seminar, praktika və s.) asılı olaraq pedaqogikanın tədrisində interaktiv metodları seçməyi bacarmalıdır. Aparılan müşahidələr göstərir ki, pedaqogikanın tədrisində interaktiv metodlardan istifadəyə sistemli yanaşılmır. Tələbə interaktiv metodların tətbiqində prosesin iştirakçısı olmalı və peşə hazırlığında onun mənəvi təsirlərini səriştəliliyin inkişafında hiss etməlidir. Məsələn: "Ali məktəbdə təlim metodları [48, s.189-202] mövzusunda "Əqli hücum" metodundan müəllim istifadə edərkən bütün tələbələrə verilən sual ətrafında fikir bildirməyə təhrik olunur. Hər bir tələbə öz fikrini qeyd edir. Burada əsas məqsəd mövzu ilə bağlı problemin həlli üçün tələbələr tərəfindən müvafiq ideyaların yaranmasını təmin etməkdir. Təlim metodunun mahiyyəti öyrədən və öyrənənin birgə fəaliyyəti kimi xarakterizə olunması barədə iştirakçılar (tələbələr) sərbəst halda yaranmış fikirlərin mübadiləsini elə təşkil etməlidirlər ki, onların hər biri başqa ideyaları inkişaf etdirmiş olsunlar.

Praktik məşğələlərdə (seminarlarda) pedaqogikanın tədrisində tələbələrin peşəkarlığının inkişafına ciddi təsir göstərən hərəkətli metod, disskusiya, yaradıcı situasiyaları

müəyyən edən metod, yaradıcı məsələlərin konkret həllinə yönələn metod, işgüzar oyunlar tədris materialının dərk olunmasının optimallığını artırır.

**Hərəkətli metod** – tələbələrdə kommunikativ (ünsiyyətin) vərdişlərin inkişafına imkan yaradır. Bu metod tələbələrin pedaqogikadan sualların düzgün cavablandırılması nəticəsində məntiqi təfəkkürün inkişafı ilə yeni biliklərin yaradılmasına şərait yaradır.

**Diskussiya** – əlaqə üçün vacib formalardan biri olub tələbələrin dərketmənin (idrakın) özünəməxsus üsulu olub hər hansı bir sualla əlaqədar müzakirə nəzərdə tutulur.

Keys kimi tanınan metod konkret yaradıcı situasiyaların müəyyən edilməsi tələbələrin fəallığına, nailiyyətlərin qazanılmasına imkan yaradır. Öyrənənlər konkret situasiyanı təhlil etməyi təklif edirlər. Problemlərin mahiyyətini araşdırmaq, həllin mümkün variantlarını irəli sürmək və onlardan ən səmərəlisini seçmək barədə idrak fəallığı nümayiş etdirirlər.

Pedaqogikadan seminar məşğələlər zamanı yaradıcı məsələlərin kollektiv həlli iştirakçıların mövzu ilə əlaqədar sadə informasiyaların təkrarı deyil. Qeyri müəyyən böyük və kiçik elementlərini özündə birləşdirən tapşırıqlara əsaslanır.

**İşgüzar oyunda** – tələbələr real şərtlər təqlid edir. Konkret spesifik əməliyyatlardan istifadə edərək uyğun iş prosesi modelləşdirir.

Ali məktəbdə təhsil alan tələbələrə pedaqogikanın interaktiv metodla tədrisini onların peşə hazırlığında rolu haqqında elmi-mühakimə yürütmək birmənalı deyildir. Burada tələbələrin təlim və idrak prosesində fəaliyyət və davranışını nəzərə almaq son dərəcədə vacibdir. Tədqiqatçılar pedaqoji prosesdə tələbələrin fəaliyyət və davranışının üç tipini müəyyənləşdirmişlər. Pedaqogika fənni məhz qeyd olunan tiplər üzrə fəaliyyət və davranış nümayiş etdirən tələbələrin səriştəliliyini formalaşdırmağa xidmət edərək onlarda müəllimlik peşəsinə daxil olan keyfiyyətlərin ahəngdar inkişafını təmin edir.

Tələbələr fərqli yanaşma tərzlərinə və öyrənmə motivasiyalarına malikdirlər. Birinci qrupa aid olan tələbələr ali təhsilin məqsəd və vəzifələrinə geniş prizmadan baxır, yalnız tədris proqramında nəzərdə tutulan biliklərlə kifayətlənmir, əlavə informasiyalar əldə etməyə çalışır, elmi tədqiqatlara maraq göstərir və kollektiv fəaliyyətlərdə sosial aktivlik nümayiş etdirirlər.

İkinci qrup tələbələr daha çox dar ixtisaslaşmaya yönəlirlər. Onların idrak fəallığı tədris proqramını aşsa da, əsas diqqət dərin biliyə yönəlmiş olur. Bu tələbələr üçün mədəni tələbatlar əsasən seçdikləri ixtisasla məhdudlaşır.

Üçüncü qrupa daxil olan tələbələr isə yalnız tədris proqramında nəzərdə tutulan biliklərlə kifayətlənir, fəallıq və yaradıcılıq nümayiş etdirmirlər.

Araşdırmalar göstərir ki, pedaqogika fənni interaktiv metodlarla tədris olunduqda tələbələrin ali məktəb mühitinə uyğunlaşması daha effektiv şəkildə həyata keçir,

peşəyə maraqları artır, mədəni maraqları yalnız ixtisasla məhdudlaşmır və onlar daha fəal və yaradıcı olurlar.

Tədqiqat nəticələri onu da sübut edir ki, tələbələrin peşə və ixtisasa dair stabil münasibətləri əsasən üçüncü kursdan sonra formalaşır. Bu mərhələdə sosial və peşə motivləri bir-birini tamamlamalıdır. Lakin aparılan sorğular və müşahidələr göstərir ki, tələbələr arasında sosial və peşə motivləri ilə bağlı ciddi ziddiyyətlər mövcuddur. Ən mühüm problem isə təlim motivasiyasının qeyri-müəyyənliyi və seçilmiş ixtisasın şəxsi maraq və tələbatlara tam uyğun gəlməməsidir.

Demək ali məktəb tələbələrinin mənəvi normalar və peşə ixtisas motivlərinin inkişafı vəhdət təşkil etməlidir. Ixtisasından asılı olmayaraq ali məktəb pedaqogikası interaktiv metodla tədris olunduqda qeyd olunan motivlər tələbələrin təlim prosesində reallaşır. Açıq etiraf etməliyik ki, tələbələrin çox az hissəsi fəal, yaradıcı, kontekstuallıq nümayiş etdirir. Çünki, pedaqoji prosesdə interaktivlik lazımınca həyata keçirilmir.

Təhsil nazirliyinin tabeliyində olan dövlət ali təhsil müəssisələrinə 2023/2024-cü tədris ilində bakalvriat və magistratura səviyyələri üzrə aşağıdakı ali məktəblərdə qəbul olunanların sayına diqqət etsək pedaqogika fənnin kadr hazırlığında rolunu aydın dərk etmək olar.

- Bakı Dövlət Universiteti – 5660;
- Azərbaycan Dövlət Pedaqoji Universiteti – 2470;
- Bakı Slavyan Universiteti – 877;

- Azərbaycan Dillər Universiteti – 1220;
- Sumqayıt Dövlət Universiteti – 1105;
- Gəncə Dövlət Universiteti – 1207;
- Naxçıvan Dövlət Universiteti – 837;
- Lənkəran Dövlət Universiteti – 303.

13679 tələbənin eyni vaxtda pedaqogika fənnin imkanlarından faydalanaraq dəyişən sosial – iqtisadi şəraitdə XXI əsrin tələblərinə cavab verən keyfiyyətləri özündə əks etdirən peşə hazırlığının həllinə nail olmaq strateji əhəmiyyətinə görə böyük hadisədir.

Pedaqogikanın interaktiv metodla tədrisi tələbələrə peşə hazırlığında önəmli olan aşağıdakı keyfiyyətləri aşılayır.

- sərbəst düşüncənin inkişafı;
- müstəqil çalışma;
- yeni proqramların hazırlanması və tətbiqi;
- müxtəlif fikirlərə və mülahizələrə açıq olmaq.

Təhsilin inkişafına, insan şəxsiyyətinin formalaşmasına xidmət edən pedaqogikanın cəmiyyətdə rolu, müəllimin peşə hazırlığına müsbət motivlərlə şərtlənir. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır” fikirlərini strateji vəzifə kimi qarşıya qoymuş ümummili lider Heydər Əliyevin bu fikirlərini “Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərdən biridir” fikirləri ilə tamamlayan təhsili cəmiyyətin ən prioritet sahəsinə çevirən möhtərəm prezi-

dentimiz İlham Əliyev Azərbaycanın davamlı inkişafını bilavasitə təhsilin inkişafında görür.

Pedaqogikanın interaktiv metodla tədrisi gələcəyin müəllimin peşə hazırlığında təhsilin sosial rolunun səmərəli tətbiqini gerçəkləşdirir. Nəzərə alsaq ki, hazırda ölkəmizdə müəllimlərin sayı təxminən 200 mindən çox, təhsil alanın sayı isə 1,7 milyona yaxındır. Dünyada bu sahəni təxminən bir milyard nəfərdən çox öyrənən və 50 milyon öyrədən əhatə edir. Bu göstəricilər ali məktəblərdə pedaqoji kadrlın hazırlanmsında interaktiv metodlarının təsirlərinin artırılması zəruridir.

Pedaqogikanın interaktiv metodla tədrisi müəllim hazırlığında təcrübənin qazanılmasında mühüm əhəmiyyəti vardır.

Pedaqoji elmin qızıl sütunu adlandırılan, görkəmli ictiami xadim Yan Amos Komenski "Hamıya hər şeyi öyrətməyin ümumi nəzəriyyəsini" əsaslandırmasını məhz uzunmüddətli müəllimlik təcrübəsindən istifadə etmişdir.

Bu baxımdan müəllimin pedaqoji qabiliyyətlərinə aid olan başlıca keyfiyyətlər interaktiv metodların tətbiqi ilə səmərəsini artırmaqla texnoloji imkanları artır.

Müəllimin peşə fəaliyyətinə daxil olan bütün qabiliyyətlər (akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq, iradı – emosional) ali məktəblərdə ixtisaslarından asılı olmayaraq pedaqogika fənnin tədrisi ilə aşılanır. Didaktikanın müasir problemlərinə aid olan pedaqogikanın interaktiv metodla tədrisi müəllimin peşə fəaliyyətinə daxil olan qabiliyyətlərinin yeni təlim

texnologiyalarının metodolologi əsasları ilə nümayiş etdirilməsini tələb edir.

Tələbələrin ali təhsil motivləri müxtəlif olduğu üçün pedaqoji kadrların hazırlanmasında interaktiv metodların təsirləri hamı üçün eyni deyildir.

Aparılan tədqiqatlardan əldə olunan nəticələrə görə, tələbələrin ali təhsil motivləri müxtəlif aspektləri əks etdirir. **Bu motivlər arasında ən çox yayılmışlar aşağıdakı kimidir:**

- diplom almaq (4-14%);
- peşəyə yiyələnmək (56-62%);
- elmi tədqiqatlarla məşğul olmaq (5-15%);
- tələbəlik həyatı yaşamaq (8-18%);
- gələcək maddi təminat (43-53%);
- xarici dillərə yiyələnmək (17-41%);
- mədəni insan olmaq (33-39%);
- xaricdə işləmək (20-29%);
- sahibkarlıq sahəsində bilik və təcrübə qazanmaq (10-16%);
- dostlar və tanışlar arasında nüfuz qazanmaq (10-13%);
- ailə ənənəsini davam etdirmək (6-9%).

Ali təhsil müəssisələrində tələbələrə verilən pedaqoji təhsil onların intellektual, mənəvi, əxlaqi, estetik, fiziki və iradi keyfiyyətlərinin inkişafını təmin edir. Bu prosesdə tələbələrə həmçinin seçdikləri peşəyə hörmət

göstərmək, mütəxəssis olmaq üçün vacib olan bilik, bacarıq, vərdiş və dəyərləri qazanmaq məqsəd qoyulur.

İnteraktiv pedaqogika tələbəlik dövrünün əsas xüsusiyyətləri olan şüurlu motivlərin güclənməsi, davranışın sabitləşməsi, özünütəhlil, özünüqiymətləndirmə və özünütərbiyənin məqsədyönlülüyündə özünü əks etdirir.

Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında interaktiv metodların təsirlərinin qanunauyğunluqları – müvafiq amillərlə şərtlənir.

- pedaqogikanın interaktiv metodla tədrisi keyfiyyətinin yüksəldilməsi cəmiyyətin inkişaf səviyyəsi ilə şərtlənməsi;
- pedaqogikanın interaktiv metodla tədrisi – tələbənin idrak fəaliyyətinin inkişafı ilə mütənasibliyi;
- pedaqogikanın interaktiv metodla tədrisi tədqiqatçılıq fəaliyyətini inkişaf etdirir;
- pedaqogikanın interaktiv metodla tədrisi tələbənin peşə marağını yüksəldir, ünsiyyətlərini artırır, şəxsiyyət kimi formalaşmasını reallaşdırır.

Pedaqogikanın interaktiv metodla tədrisinin tələbələr arasında ünsiyyətin formalaşmasında müstəsna rolu vardır. Bu halda, qrup şəklində işləmə metodu daha üstün sayılır. Qrupu təşkil edən tələbələr qarşılıqlı ünsiyyət və müşahidə əsasında verilən təlim tapşırıqlarını yerinə yetirirlər. Hər dərs üçün seçilən iş forması isə

təqdim edilən biliklərin məzmununa uyğun olaraq müəyyənləşdirilir.

Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında ən mühüm didaktik cəhət səriştə və peşəkarlığı özündə ifadə edən öyrənməyin yolunu öyrətmək bacarığıdır.

**Ali məktəb pedaqogikasının məzmununa daxil olan aşağıdakı təlim mteriallarının:**

- ali təhsil pedaqogikasının predmeti və məqsədləri;
- ali təhsil pedaqogikasının yaranışı və formaları;
- azərbaycan respublikasının təhsil sistemi;
- pedaqoji fəaliyyətin strukturu;
- ali təhsil müəssisəsində tədrisin mahiyyəti, əsas qüvvələri və prinsipləri;
- təhsilin məzmunu və onun inkişafının elmi əsasları;
- ali təhsil müəssisəsində tədris metodları;
- ali təhsil müəssisəsində tədrisin təşkili formaları;
- ali təhsil müəssisəsində pedaqoji texnologiyalar;
- tədris keyfiyyətinin diaqnostikası;
- ali təhsil müəssisəsində tələbə praktikasının təşkili;
- ali təhsil müəssisəsində mütəxəssis hazırlığının pedaqoji və psixoloji
- məsələləri;
- ali təhsil müəssisəsində tərbiyə prosesinin mahiyyəti;

- tələbə kollektivinin və şəxsiyyətlərarası münasibətlərin təşkili;
- ali təhsil tələbələrinin tərbiyəsinin sosial və pedaqoji əsasları;
- ali təhsil müəssisələrinə rəhbərlik və idarəetmə məsələləri.

Mənimsəməsində interaktiv metodlar səmərəli vasitə olub gələcək müəllimlərin kurikulumun tətbiqi üzrə pedaqoji prosesin tamlığını təmin etməyə hazırlığını reallaşdırır.

İnteraktiv metodlar pedaqoji prosesdə şəxsiyyətin tərbiyəsi, təhsili, təlimi və inkişafı ilə əlaqədar həyata keçirilən bütün məqsədyönlü, planlı və təşkilatlanmış işləri effektiv şəkildə həyata keçirməyə kömək edir.

**İnteraktiv metodlar pedaqoji prosesin tamlığı konsepsiyası baxımından öz səmərəsini verir:**

- təlim – tərbiyə fəaliyyətində;
- şəxsiyyətin ağlının, şüurunun formalaşmasında;
- zehni və mənəvi fəaliyyətində;
- ünsiyyət və ictimai davranış təcrübəsinin formalaşmasında;
- fəaliyyətin və davranışın stimullaşdırılmasında və motivləşdirilməsində;
- nəzarət, özünənəzarət və qiymətləndirmədə.

Qeyd olunan keyfiyyətlərin formalaşmasını həyata keçirən interaktiv metodlar pedaqoji prosesin fərdi, cüt, qrup və kollektiv təşkili formalarında tətbiq edilir.

İnteraktiv metodlar təlim prosesinin xarakteri, məzmunu və təşkilati formaları ilə cəmiyyətin tələbləri, elmi-texniki tərəqqinin təsiri arasındakı ziddiyyətləri aradan qaldırmağa kömək edir. Bu metodların tətbiqi, dəyişən sosial-iqtisadi şərait, XXI əsrin xüsusiyyətləri, qloballaşma və inteqrasiya ilə əlaqədar yeni təhsil proqramlarının hazırlanması zərurətini doğurur. Həmçinin, təlim prosesində yaranan ziddiyyətləri (cəmiyyətin artan tələbləri ilə təlimin real imkanları arasında; yeni vəzifələrlə mövcud təlim səviyyəsi arasında; müəllimin öyrətmə fəaliyyəti ilə tələbənin öyrənmə fəaliyyəti arasında; öyrənənin qavrayışı və anlaması arasında; mövcud biliklərlə tətbiq etmə bacarıqları arasında) və digər real dəyişikliklərə cavab olaraq bu metodların tətbiqi vacib olmuşdur.

Qarşıya çıxan ziddiyyətlərin hər birinə müvafiq olaraq düzgün seçilən interaktiv metod müəllimin peşəkarlığının göstəricisi olub yeni – yeni nailiyyətlərin qazanılmasına gətirib çıxarır.

Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında interaktiv metodların istifadəsi, tələbələrin peşə hazırlığını artırmaq, onların şəxsiyyət kimi inkişafını dəstəkləmək və müasir təhsil sisteminin tələblərinə uyğun gəlmək baxımından əhəmiyyətlidir. Bu metodlar, tələbələrin motivasiyasını artıraraq, onların gələcək peşə fəaliyyətlərinə daha hazırlıqlı olmalarına şərait yaradır. İnteraktiv pedaqogika, müasir cəmiyyətin tələblərinə

cavab verən, yaradıcı və müstəqil düşünən müəllimlərin yetişdirilməsi üçün vacib bir yanaşmadır.

**Ali məktəbdə pedaqoji kadrların hazırlanmasında interaktiv metodların istifadəsi ilə bağlı suallar:**

1. İnteraktiv metodların tətbiqi tələbələrin motivasiyasını necə artırır?
2. Tələbələrin sosial bacarıqlarını inkişaf etdirmək üçün hansı interaktiv metodlar istifadə edilə bilər?
3. İnteraktiv metodların tətbiqi tələbə və müəllim arasında ünsiyyətin keyfiyyətini necə dəyişir?
4. Tələbələrin fərqli motivasiyaları interaktiv metodların təsirini necə dəyişdirir?

# NƏTİCƏ

1. "Azerbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" ölkəmizdə səriştəli müəllimlər və təhsil menecerləri yetişdirməyə, qabaqcıl texnologiyalarla təchiz olunmuş təhsil infrastrukturunun yaradılmasına yönəlmişdir. Bu strategiya çərçivəsində ali məktəblərdə tələbələrin pedaqogika fənninin tədrisi prosesində interaktiv metodların tətbiqi və peşə hazırlığının artırılması məqsədilə əhəmiyyətli tələblər müəyyən edilir. Uğurlu nəticələrin əldə olunması üçün pedaqoji prosesdə interaktiv metodlardan daha səmərəli istifadə olunması vacibdir.

2. Pedaqogika böyüyən gənc nəslin tərbiyəsi, təlimi və təhsili haqqında elm olub, özündə ümumi təlim nəzəriyyəsini (didaktika), pedaqoji tərbiyə nəzəriyyəsini və pedaqoji rəhbərlik nəzəriyyəsini birləşdirir.

Ali məktəbdə pedaqogika fənninin tədrisi problemlərinin həlli onun aşağıdakı vəzifələrinin tədqiqi ilə şərtlənir.

- şəxsiyyətin hərtərfli və ahəngdar inkişafını təmin edən pedaqoji prosesi tədqiq etmək;
- şəxsiyyətin formalaşmasının qanunauyğunluqlarını öyrənmək;
- müəllimlərin tərbiyə-təhsil fəaliyyətinin nəzəriyyə və metodikasını müəyyənləşdirmək;

- qabaqcıl pedaqoji təcrübənin ümumiləşdirilib əməli fəaliyyətə tətbiq olunması;
- müəllimləri pedaqoji nəzəriyyələrlə, tərbiyə və təlim metodları və üsullarla tanış etmək.

Pedaqogika elminin quruluşunu özündə ehtiva edən onun mövzusu, əsas anlayışları, vəzifələri, mənbələri və sahələri haqqında zəruri bilik və bacarıqların mənimsənilməsi problemin uğurlu tədqiqində dəqiqlik, etibarlılıq, səmərəlilik üçün başlıca amillərdir. Qeyd olunan başlıca amillərə indiyə qədər lazımınca diqqət göstərilməmişdir.

3. Müşahidələrə əsasən, tələbələrin müstəqil şəkildə biliklərə yiyələnməsi prosesində mühazirələr ənənəvi bir təlim formasını təşkil edir.

Əslində, mühazirələrdə təqdim olunan elmi biliklərə tələbələr, pedaqoji texnologiyalardan istifadə edərək, müstəqil şəkildə yiyələnməlidirlər. Ali təhsil müəssisələrində aparılan sorğulara görə, tələbələrin təxminən 80%-i mühazirənin əsasını proqram materialının ardıcıl izahında görür. İcmal edilmiş tezislər əsasında aparılan mühazirələr, tələbələrlə dialoqa üstünlük verilərək və sual-cavab metodları ilə təşkil edildikdə, biliklərin aşılanması texnologiyaları müxtəlif xüsusiyyətlərə malik olur.

4. Müəllim tələbənin öyrənməyə və problemi həll etməyə həvəsini saxlamaq üçün daim psixoloji dəstək göstərməlidir. Belə olduqda tələbədə uğursuzluq qorxusu, inamsızlıq hissi aradan qalxır və dərs boyu idrak fəallığı lazımi səviyyədə saxlanılır. Buna nail olmaq üçün

müəllim problemin tələbələr tərəfindən müstəqil tədqiq edilməsindən ötrü bütün tədbirləri görməlidir. Tələbə tərəfindən problemin həllində hər hansı cəhd yaradıcı fikir kimi qəbul edilməlidir.

Pedaqogikanın tədrisi fəal dərsin mərhələləri üzrə həyata keçirilməlidir.

5. Araşdırmalardan aydın olur ki, Azərbaycanda ali məktəb pedaqogikasının yaradılması təşəbbüsü keçən əsrdə 80-cı illərin axırlarında reallaşmağa başlamışdır. Bununla yanaşı ali-pedaqoji məktəbdə tədris prosesinin keyfiyyətinin yüksəldilməsini təmin etmək üçün 70-ci illərdə müxtəlif istiqamətlərdə (pedaqoji prosesin tənzimlənməsi və idarə olunması, təlim prosesinin mahiyyəti, vəzifələri, təşkili formaları, pedaqoji təcrübə, müəllim və tələbə münasibətləri, tələbə-elmi tədqiqat işləri və bir çox didaktik məsələlər barədə) metodiki xarakterli əsərlər yazılmışdır. Atılan addımlardan bir daha aydın olur ki, ali məktəb pedaqogikasının məzmununun formalaşması zərurəti meydana gəlmişdir. Məhz 80-ci illərdən başlayaraq ali məktəb pedaqogikasının tərkib hissəsinə daxil olan aktual mövzularda tədqiqatlar aparılmışdır.

6. Ali məktəbdə təlim metodunun mahiyyəti, müəllimin təlimi idarə etməsi və tələbələrin tədris fəaliyyəti üçün optimal yolların təşkil edilməsi məqsədini daşıyır. Təlimin məqsəd, məzmun, metodlar, formalar və vasitələr sistemində metodun rolu müəyyən olunur.

**Metod, didaktik vəzifələrin həllinə yönəldiyi üçün:**

- müəllimin fəaliyyətinə aid olduqda – tədris metodları;
- öyrənənin fəaliyyətinə aid olduqda – öyrənmə metodu;
- öyrədən və öyrənənlərin birgə fəaliyyətinə aid olduqda – təlim metodları kimi nəzərdə tutulur.

Metodun strukturu və həcmi sadə və məhdud olduqda, tərz (priyom) yerinə keçir. Metod, "işi necə görməli?" sualına cavab verir, vasitə isə "işi nə ilə görməli?" sualına cavab olaraq ortaya çıxır.

**Dərslikdə metod haqqında pedaqoq alimlərin fikirləri ümumiləşdirilmişdir:**

- Öyrədən və öyrənənin iş vasitələri (B.P.Yesipov);
- Öyrədən və öyrənənlərin qarşılıqlı fəaliyyəti (E.Y.Qolant);
- Təlim metodunun mahiyyəti, "qarşıya qoyulmuş məqsədə necə nail olmalı?" sualına cavab verir (B.Əhmədov).

Digər müəlliflər təlim metodunu, təlim prosesində qarşıya qoyulmuş məqsədə çatmaq üçün öyrədən və öyrənənin birgə fəaliyyəti vasitəsilə əldə edilən səmərəli yollar kimi təyin edirlər.

7. Təlim funksiyalarının yerinə yetirilməsində müəllim və tələbə arasında ünsiyyətin və təlim prosesinin quruluşunun əhəmiyyəti böyükdür. Demokratik və

qarşılıqlı ehtirama əsaslanan ünsiyyət üslubu, həmçinin təlim prosesinin strukturu (ünsürləri) müəllim tərəfindən daim diqqət mərkəzində saxlanılmalıdır.

Təlim prosesinin quruluşu (ünsirləri)-fəaliyyəti bütövlükdə özündə ehtiva edir. Bura daxildir:

Təlimin məqsədi, motivləri, məzmunu, vasitə və metodları, təşkili formaları, nəticələri.

İnteraktiv metodlardan pedaqoji istiqamətli fənlərin tədrisində istifadə olunarkən-təlim prosesinin ünsirləri arasında qanunauyğun əlaqə və asıllıq gözlənilərək təmin olunmalıdır. Yəni hər bir əvvəlki ünsir özündən sonrakıları şərtləndirir. Bu halda qeyd etmək lazımdır ki, hər bir növbəti ünsür özündən əvvəlkilərə əsaslanmalı və onlara istinad etməlidir. Məsələn, təlimin məqsədi onun məzmununu müəyyən edir. Məqsəd və məzmun birlikdə təlimin metodlarını və formalarını təyin edir. Təlim prosesinə nəzarət isə məqsədin yerinə yetirilməsini təmin edir və fəaliyyətin düzgün yönləndirilməsinə xidmət edir.

8. Açıq etiraf olunmalıdır ki, ənənəvi təlimin XXI əsrin yaradıcı, özünüinkişaf, etdirən şəxsiyyət yetişdirmək imkanı yoxdur. Biz bu fikri ənənəvi pedoqoji prosesi şərh etməklə əsaslandıra bilərik. Tələbələr qarşısında duran müəllim sakit dinləyiciləri olan öyrənənlərə bilikləri passiv şəkildə çatdırır, şərh edir və misallar gətirir. Sonra bilikləri möhkəmləndirmək məqsədilə tələbələr həmin bilikləri təkrarlayır və ya müxtəlif çalışmalar, tapşırıqlar, məsələlər vasitəsilə tətbiq etməyə çalışırlar. Ənənəvi təlimdə tələbələr əsasən məlumatları yadda saxlamağa

çalışırlar, müəllim isə nəticələri özündə toplayıb bilikləri tələbələrə hazır şəkildə təqdim edir. Lakin burada ziddiyyətli və qeyri-məntiqli olan məqam odur ki, öyrətmə fəaliyyəti əsasən müəllimin fəallığına əsaslanır.

Ali pedoqoji məktəbdə təlim prosesinin təşkili son dərəcə geniş-elmi, metodik və didaktik səciyyə daşıyan fəaliyyətlərin məcmusu əsas hərəkətverici qüvvə interaktiv yanaşmalarla təmin olunur.

9. Tərbiyə, təlimin forma və imkanlarını öyrənən elm olan pedaqogikanın tədrisi keyfiyyətinin yüksəldilməsi, tələbənin peşə hazırlığının səriştəliliyinin aktual problem kimi tədqiq olunması yarananan ziddiyyətlərin öyrənilməsi, bu sahədə hərəkətverici qüvvə olan interaktiv metodların imkanlardan istifadənin müvafiq qanunauyğunluqların, prinsiplərin və yeni yanaşmaların müəyyənləşdirilməsinə zərurəti var.

Peşə – insanın zəruri və mənəvi qüvvəsinin tətbiq sahəsi olub, xüsusi hazırlıq və iş təcrübəsi nəticəsində nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnmiş şəxsin əmək fəaliyyətidir. Pedaqogika fənninin tədrisi müəllim peşəsinə yiyələnənlərin zəruri qabiliyyətlər (akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi – emosional) qazanmalarını təmin etməkdə mühüm rol oynayır.

10. Ali pedaqoji məktəblərdə pedaqogikanın interaktiv metodlarla tədrisi tələbələrin peşə hazırlığının yüksəldilməsində geniş imkanlarına görə iki cəhət diqqətdə saxlanılmalıdır:

Birincisi pedaqogikanın yeni təlim modeli əsasında tədrisinə nail olmaq;

İkincisi tələbələrin pedaqogikadan öyrənmiş olduqları innovasiyalardan faydalanaraq digər fənlərdən peşəkarlıq və səriştəliliyi yüksəltmək, səmərəli istifadə etmək.

Pedaqogikanın interaktiv metodla tədrisində təkcə bilik deyil bütövlükdə təlim-tərbiyə prosesinin təşkili reallaşdırılır. Ənənəvi təlim metodları ilə müəllim öyrənənə çatdırılmalı dərsin məzmununa (hansı bilik öyrədilməlidir) üstünlük verir. Bununla da təlim prosesində əhəmiyyət daşıyan digər amillər (necə, hansı şəraitdə) diqqətdən yayınır.

11. İnteraktiv metodların tətbiqi, əvvəlcə təlim prosesini daha dinamik və fəal etmək məqsədini güdür. Bunun üçün tələbələrə pedaqogika sahəsində öyrənilən mövzuya dair daha geniş informasiya təqdim etmək, öyrənmə sürətini artırmaq, çətinlik səviyyəsini yüksəltmək və təlim prosesində xüsusi psixoloji və didaktik şərait yaratmaq vacibdir.

Burada müəllim bilikləri ötürən funksiyadan imtina etməklə - bələdçi (katalizator) rolunu yəni biliyin – müxtəlif iş formalarından (fərdi, cüt, qrup, kollektiv) istifadə etməklə axtarıb tapılması ön plana çəkilərək, Amerikan tədqiqatçılarının A.Karnikao və F.Makelroy müəyyən etdikləri (oxuyanda 10%, eşidəndə 20%, görəndə 30%, görüb eşidəndə 50%, özü danışanda 80%,

fəaliyyət göstərdikdə 90% dərk etmə) ən yüksək nəticə qazanılır.

12. Ənənəvi təlimdən fərqli olaraq pedaqogikanın interaktiv metodlarla tədrisi, pedaqoji kadr hazırlığında müəllimin "bələdçi" funksiyası üzrə zəruri bilik, bacarıq qazanmasını optimallaşdırır, onların psixoloji və təşkilati dəstəkləmənin, fikrin təhrik edilməsi, məlumatla təmin etmə kimi səriştənin qazanmasına, yeni keyfiyyətlər və davranış xüsusiyyətlərinin formalaşmasına şərait yaradır.

13. Ali məktəblərdə təhsil illərində pedaqogika tələbələrin intellektinin, mənəvi, əxlaqi, estetik, fiziki, iradi keyfiyyətlərinin inkişafını təmin etməklə, seçdiyi peşəyə hörmət etməyi, yüksək ixtisaslı mütəxəssis üçün vacib olan bilik, bacarıq, vərdiş və dəyərlərə yiyələnməyi tərbiyə etməklə yanaşı, təhsil illərinin əsas xüsusiyyətləri olan şüurlu motivlərin güclənməsi, davranışın sabitləşməsi, özünütəhlil, özünüqiymətləndirmə və özünütərbiyənin məqsədyönlülüyündə özünü əks etdirir.

14. Azərbaycanda pedaqogikanın öyrənilməsi, ali məktəblərdə tələbələrin peşə hazırlığının inkişaf etdirilməsi üçün vacib bir elm sahəsi olmuşdur və bu, dövlət müstəqilliyinin bir hissəsi kimi qiymətləndirilir. İnteraktiv metodlarla pedaqogika tədrisinin keyfiyyətini artırmaq məqsədilə aparılan eksperiment, əvvəlcədən müəyyən edilmiş fərziyyələrə əsaslanaraq üç mərhələdə (müəyyənedici, öyrədici, yoxlayıcı) həyata keçirilmişdir. Eksperimentdə Bakı Dövlət Universiteti, Azərbaycan

Dövlət Pedaqoji İnstitutu və bu institutların tələbələri iştirak etmişdir.

**Tədqiqatın nəticələrinə əsaslanaraq aşağıdakı təkliflər formalaşdırılmışdır.**

1. Ali məktəb pedaqogikasının tədrisi keyfiyyətini yüksəltmək üçün interaktiv təlim texnologiyalarının tətbiqinə ciddi ehtiyac olduğunu nəzərə alaraq xüsusi kursların təşkili, müvafiq proqramların tərtibi, dərslik və vəsaitlərin hazırlanması vacibdir.

2. İnteraktiv texnologiyadan faydalandıqda ali pedoqoji məktəbdə kadr hazırlığının səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən kommunikativ keyfiyyətlərin təmin olunmasına geniş yer verilməsini məqsədəuyğun sayırıq.

3. Fənlərin tədrisində təlim prosesinin quruluşuna daxil olan (təlimin məqsəd və vəzifələri, öyrətmə və öyrənmə prosesi, təlimin məzmunu, təlimin metod və vasitələri, təlimin təşkili formaları, təlimin nəticələri) hər bir komponentin reallaşmasında interaktiv metodların tətbiqi imkanlarının müəllim tərəfindən peşəkarlıqla mənimsənilməsi arzu olunur.

4. İnteraktiv metodla fənlərin tədrisi tələbələrin Azərbaycanda qəbul olunmuş mövcud kurikulum modelinə təhsilin məzmunu (standartlar), strategiyalar (pedaqoji texnologiyalar), qiymətləndirmə mexanizmlərinin mənimsənilməsi, praktik təcrübələrdə, sınaq dərslərində bacarıqla tətbiqinə zəmin yaradır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqındaAzərbaycan Respublikasi Prezidentinin sərəncamı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bakı şəhəri, 15 iyun 1999-cu il. Bакı: Çaşıoğlu, 1999.
2. "Azərbaycan 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasi (Azərbaycan respublikasi prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı) / "Azərbaycan Müəllimi" qəz. 20 yanvar, 2013-cü il.
3. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı, Ozan, 2009.
4. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.
5. Azərbaycan Respublıкasının ali təhsil müəs-sisələrinin Avropa ali təhsil məкanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublıкası Prezidentinin sərəncamı/ "Azərbaycan" qəzeti, 1 fevral 2008.
6. Azərbaycan Respublikası Təhsil Qanunvericiliyi külliyyatı. Bakı: 2001.
7. Azərbaycan Respublikası Prezidentinin "Təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun

2000-ci il tarixli fərmanı / "Azərbaycan" qəzeti, 14 iyun 2000.

8. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. *Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir* / "Xalq" qəzeti. 21 Yanvar, 2015-ci il.
9. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 26 yanvar 2015-ci il. Azərbaycan Respublikası Prezidentinin sərəncamı / "Xalq" qəzeti, 27 yanv. 2015-ci il.
10. Abbasov Y. Pedaqoji texnologiyalar. Bakı, Mütərəccim, 2006.
11. Abbasov Y. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı, 2011.
12. Abbasov A.N., Əlizadə H.Ə.Pedaqogika ali məktəblər üçün dərs vəsaiti. Bakı, Renesans, 2000.
13. Ağayev Ə. Pedaqogika. "Nasir" nəşriyyatı, 2007.
14. Adiloğlu M. Ümumi təhsili səmərələndirmə texnologiyaları tükənməzdir. "Azərbaycan məktəbi", Bakı, 2005, № 6.
15. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, priotetlər, islahatlar. Bakı, 1999.

16. Ağamalıyev R., Əhmədov İ., Tədris prosesində modul təlim texnologiyasından istifadənin imkan və yolları. Pedaqoji texnologiylar. Bakı, 2006.
17. Ağayev Ə. Ə. Təlim prosesi : ənənə və müasirlik. Bakı, Adiloğlu, 2000.
18. Ağayev Ə.Ə. Yeni təlim metod və texnologiyaslarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin "Elmi əsərləri", Bakı, 2006.
19. Ağayev Ş., Sadıqov M., Muxtarova Z., İsmayılova A. İbtidai siniflərdə fəak təlimin nəzəri və praktik məsələləri. "Nasir" nəşriyyatı, Bakı, 2007.
20. Ağayev Ş.O. İbtidai siniflərdə fəal təlimin nəzəri və praktik məsələləri.Bakı, 2007.
21. Alışov M.Ə. Kompüter texnikası ilə şagirdlərin təlim fəaliyyəti. Azərbayvan məktəbi, 2000, №2.
22. Azərbaycan Respublikası ümumtəhsil məktəblərindən maddi-texniki bazasının möhməmlənməsi haqqında Azərbaycan Respublikası Preziadentinin sərəncamı. Azərbaycan qəzeti.2002, 4 oktyabr.
23. Bağırova L. Müəllim-şagird münasibətlərin təlim keyfiyyətinə təsiri. "İbtidai təlim və məktəbəqədər tərbiyə" jurnalı, 2002, №1.
24. Bəşirov N.Ə. Təlim prosesi və kompüter texnologiyası. Azərbaycan məktəbi, 2001, №6.
25. Cəfərova İ.Ə. İnformasiya texnologiyalarının təlim – tərbiyə prosesində tətbiqinin psixoloji xüsusiyyətləri. Təhsil Probelmləri İnstitutun elmi xəbərləri,2008, №1.

26. Dadaşzadə D. İnteraktiv təlim metodları və yeni pedaqoji texnologiyaların tətbiqi tərbiyəsindən. “İbtidai təlim və məktəbəqədər tərbiyə” jurnalı, 2002, №1.
27. Dəmirov A.H., Məmmədov S.M., İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2007.
28. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
29. Əliyev Heydər.Müstəqilliyimiz əbədididr. Bakı, 2005.
30. Əliyev İlham. Dünya Azərbaycanlılarının III qurultayında nitq. 5 iyul, 2011 / Xalq qəzeti, 6 iyul, 2011.
31. Əliyev İlham. AMEA-nın 70 illik yubileyində nitq / “Xalq qəzeti, 11 noyabr, 2015-ci il.
32. Fəal təlim metodlarına giriş üçün tövsiyələr (məktəb müəllimləri üçün) Bakı, YUNİCEF, 2004.
33. Həsənov M.M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri və praktik məsələləri (metodik vəsait) Bakı, 2009.
34. Həsənov R.M. Layihələr metodundan istifadə edilməsində əməkdaşlığının təşkili. “Təhsil problemləri” qəzeti, 22 iyun-5 iyul, 2003-cü il.
35. Hüseynzadə R.L. Pedaqogika. Dərslik, 2 cilddə. Bakı, Mütərcim, 2013.
36. Hüseynzadə R.L. Məktəbdə pedaqoji prosesin təşkili. Bakı, Aktiv, 2013.

37. Hüseynzadə R.L. Magistr dissertasiyası. Bakı, Nurlar, 2009.
38. .İbtidai sinif müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Bakı, 2000
39. İnformatika və informasiya texnalogiyası: dərslik. Bakı, 2004.
40. İlyasov M.İ. Müasir təhsil: Ənənədən innovasiyaya. Bakı. "Elm və təhsil", 2021.
41. İsmayılov İ.N "Ümumtəhsil məktəblərində yeni informasiya texnologiyalarindan istifadənin bəzi nəzəri problemləri. Azərbaycan məktəbi, Bakı, 2007, №6.
42. Məmmədova K. Təhsilin müasir problemləri. Bakı. 2010. səh.271.
43. Mehrabov A., Abbasov Ə. Və b. Pedaqoji texnologiyalar. Bakı, "Mütərəcim", 2006.
44. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007, Mütərəcim.
45. Mehrabov A.O. və b. Pedaqoji texnologiyalar. Bakı, 2009.
46. Mehrabov. A.Təhsilin müasir problemləri. Bakı, 2010.
47. Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, 2006.
48. Mərdanov M., İsgəndərov İ., Ağamalıyev R., Azərbaycan təhsili islahat illərində. Bakı, "Təhsil", 2001.

49. Nəzərov A. "Müasir təlim texnologiyaları üzrə proqram" Bakı, 2010.
50. Nuriyeva Ş. İnteraktiv metodlarda istifadə təliminin keyfiyyətinin yüksəldilməsinin mühüm vasitəsidir. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" 2002, №1.
51. Orta məktəbdə yeni təlim metodları, Bakı, Orucəliyev N. Pedaoji prosesdə kompüter texnologiyaların üstünlükləri haqqında. Azərbaycan məktəbi. 2001, №2.
52. Paşayev Ə.X. Dünya təhsil məkanı: inteqrasiya və infikasiya yollarında problemlər. "Azərbaycan müəllimi" qəzeti, 7 yanvar, 2005, №1(8110).
53. Paşayev Ə.X., Rüstəmov F.A Təlim texnologiyalarının struktur və funksional komponentləri // Pedaqoji tədqiqatlar (Elmi məqalələr məzmuəsi). 2002, № 2-3.
54. Rüstəmov F.A. Avropada ali təhsilin inkişaf meylləri: Bolonya prosesinə qədərki dövrün mərhələləri/ "Azərbaycan məktəbi" jurn. 2007, № 4.
55. Rüstəmov F.A. Avropada ali təhsilin inkişaf meylləri: Bolonya prosesinə qədərki dövrün mərhələləri / "Azərbaycan məktəbi" jurnal. 2007, № 4.
56. Seyidov E.M. Təlim texnologiyaları və kompüter dəstəkli təhsil, Azərbaycan məktəbi, 2003, №4.
57. Şirinova N. İnteraktiv metodlarından necə istifadə edirəm. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2002, №1.

58. Təhsildə tətbiq olunan innovasiyalar (müəllimlər üçün vəsait), “müəllim” nəşriyyatı, Bakı, 2010.
59. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007.
60. Vəliyeva Z. İnteraktiv təlim və şəxsiyyətin formalaşmasında onun rolu. “Azərbaycan məktəbi”, 2002, №3.
61. Yeni pedaqoji təfəkkürün inkişafı: Müəllim fəaliyyətinin əsas istiqamətləri. Bakı, 2000.
62. Zeynalov Z. Yeni pedaqoji texnologiyalar və müasir dərslik. “Azərbaycan müəllimi” qəzeti, Bakı, 2002.
63. Ветохин С.С. Синектика. Презентации лекций PPT http://www.twirpx.com/file/56110/.

**QARİFAT DADAŞOVA**

# TƏDRIS PROSESDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Dərs vəsaiti**

***Nəşriyyatın direktoru:*** ***Hüseyn Hacıyev***
***Redaktor:*** ***Mustafa Şəfiyev***
***Korrektor:*** ***Sevinc Mamoyeva***
***Dizayn:*** ***Müşfiq Hacıyev***
***Cildçi:*** ***Elmar Mikayılov***

***Çapa imzalanmış 13.10.2025-ci il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 16***
***Sifariş 116, sayı 200***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***